


## "Ordumuz istənilən təxribatın qarşısını almağa hazırdır" - Anar Eyvazov

*"Artıq Laçın şəhəri və iki kənd bizim nəzarətimizdədir". "Unikal" xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik-leytenant Anar Eyvazov deyib. MN rəsmisi bildirib ki, hazırda Azərbaycan Ordusunun bölmələri...*

Səh.5


# UNİKAL

№32 (2117) 2 sentyabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## "Azərbaycanda oliqarx biznesi var, bu gün də davam edir"



Səh.9

## Yekun sülhə köklənən danışıqların 4-cü raundu...

### Vahid Əhmədov: "Ölkədə kifayət qədər varlanmış insanlar peyda olub, düz yolla o qədər vəsaiti qazanmaq qeyri-mümkündür"

*Milli Məclisin deputatı Vahid Əhmədov "Unikal"a müsahibə verib. V.Əhmədov ölkədə davam edən qiymət artımı, məmur biznesi və bunun yaratdığı neqativ nəticələr barədə fikirlərini bölüşüb.*

*-Bahalaşma çox ciddi məsələdir. Bu, tək Azərbaycanla əlaqədar deyil. Xarici dövlətlərdə də çox ciddi bahalaşma gedir. Bu, həm Rusiya-Ukrayna müharibəsi, həm də dünyada olan müəyyən ərzaq qıtlığı ilə bağlıdır. Ərzaq çatışmazlığı olduğu üçün bahalaşma var. Azərbaycana kifayət qədər ərzaq məhsulu idxal edilir. Həmin məhsullarla bərabər həm inflyasiya, həm də qiymət artımı idxal edirik. Qeyri-neft sektorunun inkişafı üçün İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən işlər görülüb. Regionların iqtisadi inkişafı proqramı çərçivəsində...*

Səh.4

## Hacıbala Abutalıbovun başı yenidən dərddə...



*Bakıdakı qanunsuz tikililər mövzusu yenidən aktuallaşıb. Xüsusilə paytaxtın sabiq meri Hacıbala Abutalıbov vəzifədə olarkən geniş vüsət alan "tikinti bumu"nun zaman keçdikcə ortaya çıxan fəsadları bu məsələ ətrafında ciddi araşdırmalar aparılmasının zəruriliyini ortaya qoyur.*

Səh.8

## Bakı Baş Gömrük İdarəsi İsmayıl Hüseynova həvalə edildi



*Dövlət Gömrük Komitəsi (DGK) sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov yeni əmr imzalayıb. "Unikal"ın əldə etdiyi məlumata görə, əmrə əsasən Komitə sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov...*

Səh.6

## Müəllimlərin sertifikasiyası təhsilimiz üçün nə vəd edir?



*Azərbaycanda təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün mütəmadi olaraq yeni layihələr icra olunur. Müəllimlərin İşə Qəbul (MİQ) imtahanından sonra məktəblərə daha bilikli müəllimlərin cəlb olunması artıq öz bəhrəsini verməkdədir. İki gün öncə isə ölkəmizdə ibtidai sinif müəllimlərinin sertifikasiyası həyata keçirildi.*

Səh.11

# "Zeynəb Xanlarova ola bilməsəm də..." - Gülay Zeynallı



***"Anam işdən tez-tez icazə alırdı. Deyirdilər ki, "Hər gün Gülayı o qapıya, bu qapıya aparırsan, guya Zeynəb Xanlarova olacaq? Anam kitabxanada işləyirdi. Bir gün gəldim ki, ağlayır".***

Axşam.az xəbər verir ki, bu sözləri müğənni Gülay Zeynallı "Tam vaxtıdır" proqramında deyib. İfaçı gənc yaşlarında yaşadığı hadisəni bölüşüb:

"Anama söylədim ki, Zeynəb Xanlarova ola bilməsəm də, sənin qızın olaraq Gülay Qədirova kimi mənim də adım tanınar. Heç zaman sənin əziyyətini yerdə qoymaram. Elə də oldu. Allah anamın da, mənim də əziyyətini yerdə qoymadı. Əsas odur ki, Allah ağlımızı başımızdan almadı. Hər zaman rastıma yaxşı insanlar çıxdı və dəstək olan insanlar da çox oldu".

# "Şou-biznesdə "Nömrə 1" filan yoxdur" - Gövhər Həsənzadə



***Əməkdart artist Gövhər Həsənzadə sənətçilərə qoyulan titullardan gileylənib.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bəstəkar bu barədə "Maqazin Plus"a müsahibəsində danışıb. O, şou-biznesdə "Nömrə 1" və "Meqastar" kimi tituları qəbul etmədiyini bildirib:

"Nə "Meqastar"? Bu sözləri haradan tapırsınız. Bu xarici sözləri başa düşmürəm. "Meqastar" sözü yoxdur, Rəşid Behbudovun yanında o söz nə qədər cılız qalır. Sənətkar! "Nömrə 1" filan yoxdur. Tamaşaçı var ki, 5 nəfərdir, amma məhəlləsindəki ifaçını sevir. Həmin 5 nəfərin hissiyatını, qürurunu bilirsiniz nə qədər yaralayırıq? Onlar üçün kimi sevirlərsə, "Nömrə 1" odur.

Üzdən tanımadığınız, amma avtomobildə, el şənliyində, kanallarda mahnıları səslənən ifaçılar var ki, Azərbaycanda 95 faizin zövqünə uyğundur. Sevə-sevə də dinlənilir. İndi ona "Meqastar" deyək? Heç bir sənət adamı özünü ikinci görmür, tamaşaçı da öz sevdiyi ifaçısını ikinci kimi görmür. Onu deyən adama da nifrət edir".

# Elnarə ATV ilə anlaşdı



***Müğənni Elnarə Xəlilova yeni mövsümdə aparıcı kimi tamaşaçıların qarşısına çıxacaq.***

Axşam.az-ın əldə etdiyi məlumata görə, sənətçi ATV telekanalı ilə işbirliyinə başlayıb. Xəlilova maqazin proqramına aparıcılıq edəcək. Hətta verilişinin adının "Onlar" olacağı iddia edilib. Proqram oktyabrdan efirə gedəcək.

Qeyd edək ki, bu, E.Xəlilovanın ilk aparıcılığı deyil. O, bundan əvvəl də bir neçə dəfə veriliş aparıb.

Xatırladaq ki, ATV-də maqazin verilişlərini bundan əvvəl Afaq Gəncəli və Günay Firudinqızı aparıb. Daha sonra G.Firudinqızının "ATV maqazin"i yayımını dayandırdı. Afaq isə bir neçə il "Onlar"la efirə çıxdı. Ötən il isə Afaq fəaliyyətini Xəzər TV-də davam etdirir.

# Niyamla evlilik xəbərindən danışdı: "Həyatımı məhv etdim"



***"Bilirdim ki, şoudur. Oğlumu başqa fikirlərlə mənə qarşı doldurdular, qalmaqal yaratdılar. Hələ ki, uşaqdır, 16 yaşı var. Ana ilə övladın arasına girmək olmaz".***

Bu sözləri müğənni Aynur Dadaşova aparıcı Tarix Əliyevin (Tolik) "Tam səmimi" yutub layihəsində deyib. Sənətçi həmkarı Niyam Salami ilə evlənəcəyi ilə bağlı yayılan məlumatların ailəsində qalmaqala səbəb olduğunu bildirib:

"Oğluma dedim ki, sənətimi özün bilirsən. Hər bir yerdə, hər şeydə yanımda ol. Sənin anan yanlış həyat tərzi yaşayan qadın deyil, mənimlə fəxr edə bilərsən. Müğənni olmağıma baxmayaraq sabah bir dostunun, yaxınının yanında mənə görə utana bilməzsən. Ona görə deyirəm ki, həyatımı məhv etdim. Çünki övladlarım, doğmalarım, dayım, onun gəlini var. Ata tərəfim Amerikada, Almaniyada yaşayır. Nəyə görə onların yanında mənim adım çəkiləndə artıq bir sözlər deyilməlidir?".

# "Namiq göstərir ki, ailəlidir, ona toxunmaq olmaz"



***"Namiqlə əkizlərin münasibəti dostluq deyil. Birlikdə məclislərə gedirlər. Namiq hər adamla dost ola bilməz. Hər adam da onla dostluq etməz".***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu sözləri müğənni Niyam Salami "7 özəl" proqramında deyib. Sənətçi şou-biznesdəki dostluqlardan danışıb. Meyxanaçı Namiq Qaraçuxurlu ilə əkizlər Sevil və Sevinc Səfərovaların işbirliyinə toxunan Niyam bunun gerçək dostluq olmadığını bildirib:

"Toya, şouya görə bir araya gəliblər. Klipdə də Namiqin soyuq olduğu bilinir. Göstərir ki, ailəliyəm, ona toxunmaq olmaz".




# Azərbaycanda pul siyasəti niyə dəyişir? - Ekspertdən açıqlama

***Mərkəzi Bankın açqılamasına görə, sentyabrın 1-dən pul siyasəti alətlərinin yeni konfiqurasiyada tətbiqinə başlanılıb. Məlumatda deyilir ki, daimi imkanlar (bankların təşəbbüsü ilə keçirilən sterilizasiya və likvidliyin verilməsi əməliyyatları) alətləri işə salınıb, açıq bazar əməliyyatlarının (Mərkəzi Bankın təşəbbüsü ilə keçirilən sterilizasiya və likvidliyin verilməsi əməliyyatları) çeşidi isə genişləndirilib.***

”Unikal” xəbər verir ki, iqtisadçı ekspert Samir Əliyev Mərkəzi Bankın pul siyasətini dəyişməsi ilə bağlı açıqlamasını şərh edib. O qeyd edib ki, Mərkəzi Bank 1 günlük depozit və əks-repo əməliyyatlarının aparılmasına başlayır: ”1 günlük depozit əməliyyatları üzrə faiz dərəcəsi faiz dəhlizinin aşağı həddinə (4%), 1 günlük əks-repo əməliyyatları üzrə faiz dərəcəsi isə faiz dəhlizinin yuxarı həddinə (9,25%) bərabərdir. 1 günlük əks-repo son dəfə 2007-ci ildə tətbiq edilib. Əməliyyat illik 16% olmaqla 11 milyon manat həcmində olub. 14 və 28 günlük verilən depozit əməliyyatları isə 2021-ci ildən dayandırılıb. Bundan başqa sterilizasiya məqsədilə 7 günlük repo və əks-repo hərracları da keçiriləcək. Repo əməliyyatları üzrə faizlər faiz dəhlizinin aşağı həddi ilə uçot dərəcəsi (4%-7,75%), 7 günlük əks-repo əməliyyatları üzrə faizlər isə uçot dərəcəsi ilə faiz dəhlizinin yuxarı həddi (7,75%-9,25%) arasındakı intervalda müəyyənləşəcəkdir. Məlumat üçün bildirim ki, 7 günlük repo əməliyyatı son dəfə 2005-ci ildə aparılıb. Əməliyyatın illik faiz dərəcəsi 9,17% olmaq həcmi təxminən 1 milyon manat təşkil edib. 7 günlük əks-repo əməliyyatının aparılması barədə rəsmi məlumat yoxdur”.

Ekspert əlavə edib ki, Mərkəzi Bankın açıqlamasında 1, 3, 6 və 9 aylıq notların gəlirliliyinin bazarda tələb-təklif nisbətindən asılı olaraq formalaşacağı qeyd edilir: “Mərkəzi Bank bazarda daha çox 28 günlük və 1 illik notları buraxırdı və onların illik faiz dərəcəsi faiz dəhlizinin aşağı həddi əsasında müəyyənləşdirilirdi. Sonuncu notlar 28 günlük buraxılıb və faiz dərəcəsi 6.26%, həcmi isə 630 milyon manat olub. Mərkəzi Bankın bu addımının kökündə uçot dərəcəsinin pul-kredit siyasətinə təsirini artırmaq məqsədi güdür. Çünki dövri olaraq uçot dərəcəsinin dəyişdirilməsi kredit bazarında hiss edilmir. Mərkəzi Bank qısamüddətli pul bazarını aktivləşdirməklə bazardakı faiz dərəcələrini tədricən faiz dəhlizinə uyğunlaşdırmağa çalışır ki, sonra həmin faiz dəhlizi vasitəsilə bazara nüfuz edə bilsin”.

S.Əliyev vurğulayıb ki, REPO qiymətli kağızların satılması və əvvəlcədən razılaşdırılmış müddət bitdikdən sonra onlardan geri alınması əməliyyatıdır: ”Bu əməliyyat Mərkəzi Bank tərəfindən pul təklifinin həcminin qısamüddətli dövrdə azaldılması məqsədilə həyata keçirilir. Əks-REPO isə qiymətli kağızların alınması və əvvəlcədən razılaşdırılmış müddət bitdikdən sonra geri qaytarılmasını nəzərdə tutan əməliyyatdır. Mərkəzi Bank tərəfindən əks-REPO-nun tətbiq olunmasında məqsəd pul təklifinin qısamüddətli artırılmasıdır”.

***Anar Kəlbiyev***

# Hacıbala Abutalıbovun başı yenidən dərddə...

## Bakıdakı qanunsuz göydələnlər səbəbindən keçmiş meri çətin günlər gözləyə bilər

***Bakıdakı qanunsuz tikililər mövzusu yenidən aktuallaşıb. Xüsusilə paytaxtın sabiq meri Hacıbala Abutalıbov vəzifədə olarkən geniş vüsət alan ”tikinti bumu”nun zaman keçdikcə ortaya çıxan fəsadları bu məsələ ətrafında ciddi araşdırmalar aparılmasının zəruriliyini ortaya qoyur.***

Unutmayaq ki, Abutalıbovun daha çox qanunsuz tikililərlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı postunu itirdiyi vurğulanırdı. ”Çünki onun işdən çıxarılmasından bir müddət əvvəl prezident yanında keçirilən müşavirədə qanunsuz tikililərlə bağlı məsələ gündəmə gəlmişdi. Prezident demişdi ki, bir çox hallarda aparılan tikintilər heç bir meyara sığmır” - deyə bir müddət əvvəl ”musavat.com” yazıb. Həmçinin, ölkə başçısı dəfələrlə bildirib ki, paytaxtda bəzən memarlıq baxımından çox eybəcər binalar tikilir. Buna son qoymaq üçün çox ciddi tədbirlər görülməlidir və qanunsuz tikililərə son qoyulmalıdır: “Qanunsuz tikililərə şərait yaradan dövlət məmurları çox ciddi cəzalandırılacaqlar. Mən deyirəm, bunu hamı bilsin. Çünki bir çox hallarda bu işləri bir-birinin üstünə atırlar. Şəhər icra hakimiyyəti bələdiyyələrin üstünə, bələdiyyələr şəhər icra hakimiyyətinin üstünə. Amma faktiki olaraq bələdiyyələr şəhər icra hakimiyyətinin icazəsi olmadan belə hərəkət edə bilməz. Ona görə burada vahid bir nəzarət mexanizmi olmalıdır. Bir daha demək istəyirəm ki, ilk növbədə, Bakıda və digər şəhərlərdə bütün qanunsuz tikililərə son qoyulmalıdır. Bundan sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi, icazəsi olmadan ölkəmizdə bir dənə də bina tikilməməlidir. Kim bunu edəcəksə, dərhal mənə məlumat verilsin. Həmin o adamları ən ciddi cəzalar gözləyir. Bakı şəhərində elə yerlər var ki, utanc gətirir. Binalar heç bir qaydaya riayət olunmadan biri-birinin yanında, ictimai yerlərdə, həyətlərdə tikilir. Bu binaların tikilməsinə kim icazə verir?! Yerli icra orqanları. Bu icazəni təmənnasızmı verir?! Əlbəttə ki, yox...”

Nəhayət, bu il iyulun 26-da yeni icra başçılarını qəbul edərkən də dövlət başçısı Bakıdakı qanunsuz tikililəri yenidən yada salmışdı: “Əfsuslar olsun ki, vaxtilə Bakı şəhərində inşa edilmiş bir çox hündürmərtəbəli binalar indi heç bir şəhərsalma normalarına uyğun gəlmir. Nə üçün? Çünki qanunsuz işlər görülüb. Rayon icra başçıları qanunsuz icazələr verib və bunun nəticəsində də faktiki olaraq şəhərsalma prinsiplərinə böyük zərbə dəyib”.

Ümumiyyətlə isə Abutalıbov BŞİH başçısı postunu tutarkən davamlı şəkildə paytaxtın müxtəlif ərazilərində torpaqların qeyri-qanuni şəkildə satılmasına göz yummaqda, yaxud ”yaşıl işıq” yandırmaqda suçlandırılıb. Ancaq sabiq mer həmin ittihamlar barəsində nəyə görəsə (!) həmişə susmağı üstün tutub. Yalnız bir dəfə - 2018-ci il oktyabr ayının 12-də gecə saatlarında Bakı şəhəri Səbayel rayonu ərazisində, Badamdar şosesində torpaq sürüşməsi olarkən, özü də artıq mer deyil, baş nazirin müavini kimi həmin ittihamlara cavab verib... Əlbəttə, əgər buna cavab demək mümkündürsə!

“Əgər o torpaqlar sakinlərə mən Hacıbala Abutalıbov tərəfindən - hansı ki bu, ömrümdə ola bilməz - yaxud bir başqası tərəfindən satılsaydı, sözsüz, bu 11 nəfərdən (sürüşmə zonasındakı zərərçəkən sakinlər nəzərdə tutulur - red.) biri etiraz edərdi. Çıxıb mənə deyərdi ki, ”ay Hacıbala müəllim, siz satıbsız axı! Bu sözü eşitməmişəm. Çünki belə bir şey olmayıb”, - BŞİH-in sabiq başçısı bildirmişdi.



Lakin hər kəsə məlumdur ki, Hacıbala müəllim mer olduğu zamanda paytaxtda torpaqların necə gəldi satıldığına dair şikayətlərin nə sayı vardı, nə də hesabı... Üstəlik, Abutalıbov bu şikayətləri, narazılıqları eşitməzdən, paytaxtı nəhəng tikinti meydançasına çevirən anormal ”inşaat bumu”nu isə görməzdən gəlirdi. Elə həmin günlərdə ölkə mətbuatı yazırdı ki, məsələn, 10-16 mərtəbəli bina üçün ən azı 500 min manat rüşvət vermək tələb olunur.

Bundan başqa, sabiq mer bu postu tutarkən yaşıllıqları kəsərək ticarət obyektləri tikdirməyin, yaxud hətta tarixi binaları uçuraraq yerində çoxmərtəbəli binalar inşa etdirməyin də öz ”taska”ları vardı. Üstəlik, Xəzər dənizi sahillərinin ildırım sürətilə hasarlanmasının da tarixçəsi məhz Abutalıbovun paytaxta rəhbərlik etdiyi dövrə təsadüf (!) edirdi.

Yuxarıda sadaladığımız bütün bu anormallıqların mənfi fəsadları isə zaman keçdikcə daha aydın görünür. Artıq məsələ ölkə başçısı səviyyəsində davamlı şəkildə dilə gətirilməkdədir.

Əgər qarşıdakı dövrdə Hacıbala müəllimin BŞİH başçısı olduğu zaman paytaxtı anormal miqyasda və ağlasığmaz həddə ağuşuna alan ”tikinti bumu”nun pərdəarxası barədə genişçaplı araşdırmalara başlandığı, hüquqi ölçü götürülməsi üçün yoxlamalara start verildiyi barədə xəbərlər yayılsa, bu nə ictimaiyyətdən, nə də mediadan ötrü sürpriz sayılacaq. Əksinə, belə xəbərlər hər kəsin ürəyindən xəbər verəcək, bircə Abutalıbov və onun BŞİH-dəki keçmiş komandasından başqa...

***Sənan Mirzə***

# Yekun sülhə köklənən danışıqların 4-cü raundu...

***Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 31-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü başa tutdu.***

Aİ Şurası Prezidenti Şarl Mişel görüşlə bağlı bəyanatında bildirdi ki, nəqliyyat əlaqələrinin blokdan çıxarılması üsulları ilə bağlı müzakirələrin proqresi nəzərdən keçirilib: “Bütün bu müzakirələrlə yanaşı vurğulamaq istərdim ki, hər iki tərəfin xalqların əlaqəsi və onları uzunmüddətli davamlı sülhə hazırlamaq vacibdir. İctimai mesajlar bu baxımdan vacibdir - belə həssas bir vəziyyətdə ictimaiyyətdə deyilən hər bir söz açıq şəkildə qarşı tərəf tərəfdən dinlənilir və diqqətə alınır. Aİ uzunmüddətli davamlı sülhə doğru dəstəyini daha da gücləndirməyə hazırdır. Aİ həm də hər iki ölkənin və onların əhalisinin rifahı naminə iqtisadi inkişafın irəliləyişinə təkan verməyə davam edəcək. Biz noyabrın sonuna qədər bu formatda yenidən görüşməyə razılaşdıq”.

“Biz Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin rolunu yüksək qiymətləndiririk”. Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviterdə qeyd edib. “Biz Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin komandasının Ermənistan və Azərbaycan arasında ikitərəfli sülh müqaviləsi danışıqlarına və dövlətlərarası normallaşmaya kömək etməsini yüksək qiymətləndiririk. Prezident İlham Əliyev bununla bağlı Azərbaycanın mövqeyini dəfələrlə bəyan edib”, - Prezidentin köməkçisi bildirib.

## Ermənistan rəhbərliyi tərkisilah edilir...

Sabiq dövlət katibi, politoloq Qabil Hüseynli ”Unikal”a açıqlamasında deyib ki, bu, Brüsseldə Avropa İttifaqı xətti ilə həyata keçirilən 4-cü görüş idi. Bundan əvvəlki görüşlərdə bir sıra prinsipial razılaşmalara nail olunsa da, Ermənistan tərəfinin qeyri-konstruktivliyi, danışıqlar prosesini uzatmaq niyyətlərini nəzərə alsaq, bu görüşün nəticələrinin reallaşdırılması istiqamətində praktiki addımlar atılmayıb. Onun sözlərinə görə, Ermənistanın Baş naziri Nikol Paşinyan Moskva ilə Brüssel arasında xoşagəlməyən, kifayət qədər şübhəli görünən manevrlər edir:

”Bu, Ermənistanın Azərbaycanla imzalayacağı sülh barədə həm Moskvada, həm də Brüsseldə şübhələr yaranıb. Bu baxımdan, dördüncü görüşə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel daha yaxşı hazırlaşmışdı. O, əvvəlcədən Prezident İlham Əliyevin gündəliklə bağlı fikirlərini öyrənmişdi. Həmçinin, Nikol Paşinyanın da gündəliyin müəyyənləşdirilməsinə dair təkliflərini almışdı. Hər bir tərəfin mövqeyinə çox diqqətlə yanaşılmışdı. Paşinyanın görüşə daha tez getməsi, orada kimlərlə məşvərəti barədə müxtəlif fikirlər yayılsa da, görüşün keçirilməsində onun manevr imkanları qalmamışdı. Burada söhbət təcavüzkar Ermənistanla, Vətən müharibəsində qalib gəlmiş Azərbaycan arasında sülh sazişinin imzalanması məsələsi idi. Ötən görüşdə də bu məsələ gündəmə gətirilmişdi. Onun konkret konturları cızılmışdı, amma yerinə yetirilməmişdi. Bu dəfə həmin məsələyə daha praktiki yanaşıldı və işçi qruplarının hazırlanması barədə razılıq əldə olundu. İşçi qrupunun tərkibi sentyabrın sonlarına qədər müəyyənləşdirilməklə sülh sazişinin ilkin variantı xarici işlər nazirləri tərəfindən hazırlanaraq müzakirəyə təqdim ediləcək. Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel qeyd edib ki, bu məsələyə daha diqqətlə və ardıcıl olaraq nəzarət edəcəklər. Sülh sazişinin layihəsinin hazırlanmasını da diqqətlə izləyəcəklər”.



## Nikol Paşinyanın erməni xisləti...

Siyasi şərhçi qeyd edib ki, sərhədlərin delimitasiyası ilə bağlı məsələlər də müzakirə olunub: ”Bu, görüşdən bir gün əvvəl Moskvada Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiya üzrə Dövlət Komissiyasının növbəti görüşü keçirilmişdi. Növbəti görüş Brüsseldə Avropa İttifaqının bilavasitə vasitəçiliyi ilə baş tutacaq. Görüş zamanı Nikol Paşinyan erməni xislətinə uyğun olaraq ənənəvi cığal mahiyyətini ortaya qoyaraq son baş verən hadisələr barədə iddialar səsləndirib. Burada söhbət Azərbaycanın Qisas əməliyyatı və eyni zamanda Laçın dəhlizinin yeni yolla əvəzlənməsi haqqında məsələlər qaldırıb. Bu məsələlər Prezident İlham Əliyevin hərtərəfli izahından sonra Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel tərəfindən də qəbul edilib. Əsas diqqət yeni sülh sazişinin layihəsinin hazırlanmasına, sərhədlərin delimitasiyası məsələsinə və paralel olaraq Zəngəzur dəhlizinin açılmasına yönəlib. Bu barədə hər iki tərəf razılığını bildirib. Son iki ildə sülhyaratma prosesinə səylər göstərilsə də, indi bu proses ciddi start mərhələsinə daxil olub. Tərəflər arasında öz həllini gözləyən və ümumi razılığın əldə edilməsini gözləyən məsələlər ətrafında ilkin razılaşmalar əldə edilib, hərtərəfli, dayanıqlı sülh sazişinin imzalanması yolunda proses başlayıb”.

Milli Məclisin deputatı Əli Hüseynli isə hesab edir ki, Azərbaycan dövlətinin hərbi və siyasi gücü qarşısında duruş gətirə bilməyən İrəvan tezliklə üçtərəfli bəyanatın digər şərtlərinə də əməl edəcək. Daha doğrusu, buna məcbur olacaq: “Hər kəs görür ki, Prezident İlham Əliyevin söylədikləri və qarşıya vəzifə kimi qoyduğu bütün məsələlər mərhələli şəkildə öz həllini tapır. Ona görə də biz tezliklə dünya miqyasında böyük tarixi və geosiyasi əhəmiyyətə malik və Şərq-Qərb, Şimal-Cənub nəqliyyat vektorlarının ən vacib mərkəzi elementinə çevriləcək Zəngəzur dəhlizinin açılmasının da şahidi olacağıq.Məsələnin digər maraqlı tərəfi isə onunla bağlıdır ki, Azərbaycan qalib tərəf və qat-qat güclü olmasına baxmayaraq 10 noyabr Bəyanatının müddəalarını sülh və diplomatiya yolu ilə həll etməyə üstünlük verir, qan tökülməməsi naminə hətta müvəqqəti olaraq güzəştə də gedərək müəyyən humanist addımlar atır. Artıq Qarabağ və Şərqi Zəngəzura böyük qayıdışın startı verilib. Şübhə yox ki, tezliklə laçınlılar da öz tarixi torpaqlarına, 30 il didərgin düşdükləri yurdlarına qayıdacaqlar. Ərazi nəzarətə götürüldükdən dərhal sonra Laçında sürətli kommunikasiya-bərpa işlərinin vüsət alması, iqtisadiyyatın və turizmin inkişafına böyük töhfə ola biləcək yeni beynəlxalq aeroportun tikintisinə başlanması, təhlükəsizlik və güc strukturlarının yerli qurumlarının bu ərazidə fəaliyyətə başlaması tam əminlik yaradır ki, Qarabağın və Şərqi Zəngəzurun dirçəlməsi ilə bağlı bütün niyyətlər zamanında öz həlini tapacaq”.

## Azərbaycanın üstün mövqeyi hiss olunur...

Ə.Hüseynli onu da qeyd edib ki, Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycanın birbaşa nəzarətinə keçməsi həm də Ermənistanı sülh prosesinə məcbur edən vacib amildir. “Məhz bu hadisələrin fonunda - avqustun 31-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan liderləri arasında Brüsseldə keçirilmiş sayca 4-cü görüşün nəticələri də sülhyaratma prosesində Azərbaycanın üstün mövqeyini, danışıqlarda təşəbbüsü inamlı şəkildə öz əlində saxladığını göstərdi və Prezident İlham Əliyevin irəli sürdüyü konstruktiv təkliflərin reallaşacağına heç bir şübhə yeri qoymadı. Bundan bir gün öncə iki ölkənin baş nazirlərinin müavinləri səviyyəsində sərhədlərin delmitasiyası ilə bağlı məsələlərin müzakirəsini də məhsuldar saymaq olar. Bu hadisələri böyük diqqət və maraqla izləyən bir çox nüfuzlu siyasi texnoloqların da gəldiyi qənaətə görə bu görüş sülh müqviləsinin imzalanması, sərhədlərin delmitasiyası, kommunikasiyaların açılması, həmçinin itkin düşmüş şəxslər və minalar problemi ilə əlaqəli məsələlərin həllində yeni imkanların reallaşmasına mühüm töhfədir. Artıq birmənalı şəkildə demək mümkündür ki, Qarabağın hazırda ermənilərin yaşadığı kiçik bir hissəsinin də Azərbaycanın nəzarətinə keçməsi sadəcə zaman məsələsidir və qarşıda xalqımızı sevindirəcək hələ çox qələbələrimiz və uğurlarımız var” - deyə deputat fikrini tamamlayıb.

## Sülhə məcburetmənin nəticəsi...

Deputat Azay Quliyev isə deyib ki, Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişelin təşəbbüsü ilə üçtərəfli formatda keçirilən Brüssel görüşündə Azərbaycanın təklif etdiyi 5 təməl prinsipi əsasında Ermənistanla sülh sazişi layihəsinin hazırlanması və sentyabrda hər iki ölkənin xarici işlər nazirlərinin görüşərək ilkin mətn üzərində müzakirələrin təşkili haqqında razılığın əldə olunması görüşün müsbət nəticəsi kimi qiymətləndirilməlidir:

“Noyabr ayında əldə olunan nailiyyəti dəyərləndirmək və növbəti məsələləri müzakirə etmək üçün təkrar görüşün keçirilməsi haqqında qərarın verilməsi isə Brüssel danışıqlar formatının hələlik, ən uğurlu və işlək format olduğunu bir daha nümayiş etdirdi. Bütün çətinliklərə baxmayaraq, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi ”Brüssel Sülh Gündəliyi” və hər görüşdən öncə sülhə məcburetmə ilə bağlı gördüyü tədbirlər öz bəhrəsini verməkdə davam edir”.

***A.Kəlbiyev***

# İlham Əliyev İtaliya Prezidenti ilə görüşüb



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 1-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə görüşü olub.***

"Unikal" xəbər verir ki, Romanın Kuirinale Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. İtaliya Prezidenti Sercio Mattarella dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Azərbaycan nümayəndə heyəti İtaliya Prezidentinə, İtaliya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim edildi. Sonra birgə foto çəkdirildi.

Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan İtaliya Prezidenti Sercio Mattarella dedi: Cənab Prezident, Sizi burada - İtaliyada, Romada, Kuirinale Sarayında qəbul etməkdən şəxsən iftixar hissi duyuram. Xoş gəlmisiniz. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin 30 illiyini qeyd edirik. Bu səhər Siz Azərbaycan səfirliyinin yeni binasını açdınız. Bu, İtaliya ilə Azərbaycan arasında dostluq əlaqələrinin mühüm nümunəsidir. Əlaqələrimizin strateji əhəmiyyətindən xəbər verən 2020-ci ildəki səfərdən sonra Sizi burada Kuirinale Sarayında yenidən qəbul etməkdən çox məmnunam və şərəf hissi duyuram. Bir daha xoş gəlmisiniz, cənab Prezident.

Azərbaycan Prezidenti İlham Əliyev dedi: Cənab Prezident, dəvətə və qonaqpərvərliyə görə Sizə minnətdaram. Mən son səfərimi də xatırlayıram və əldə edilmiş bütün razılaşmalar həyatda öz əksini tapır. Biz keçən dəfə Sizinlə burada görüşəndə strateji tərəfdaşlığa dair mühüm sənəd imzalamışıq. Eyni zamanda, Azərbaycan-İtaliya Universitetinin yaradılması haqqında söhbət etmişik. Bu gün isə İtaliya-Azərbaycan Universitetinin yaradılması istiqamətində önəmli addım atıldı.

# Prezident Mario Draqi ilə görüşdü



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Nazirlər Şurasının sədri Mario Draqi ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə məlumat Azərbaycan Prezidentinin "Facebook" səhifəsində yerləşdirilib.

# Sülhməramlıların Laçındakı bütün postları götürüldü

***Rusiya sülhməramlı qüvvələrinin Laçın şəhərindəki bütün postları götürülüb.***

"Unikal" xəbər verir ki, artıq Laçın şəhərində Azərbaycan hərbi qulluqçuları mövqelər qurub, xidmət aparır.

Azərbaycan Ordusu tərəfindən Laçın şəhərinin və ətraf ərazilərin mühafizəsi həyata keçirilir.

Qeyd edək ki, razılaşmaya əsasən, Rusiya sülhməramlı qüvvələri xidmətlərini avqustun 30-dan Laçın dəhlizinə alternativ yolda aparırlar.

# Müdafiə Nazirliyindən yeni açıqlama

***Azərbaycan Ordusunun maddi-texniki təminat bölmələri tərəfindən Laçın şəhəri, Zabux və Sus kəndlərində dislokasiya olunan bölmələrin hərbi qulluqçularının məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər görülür.***



"Unikal" xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəis müavini, polkovnik-leytenant Anar Eyvazov deyib.

"Qısa müddət ərzində Müzəffər Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində digər azad olunan ərazilərdə olduğu kimi burada da xidmət edən hərbi qulluqçularımızın sosial məişət şəraiti ən yüksək səviyyəyə çatdırılacaq", - deyə A.Eyvazov bildirib.

Xatırladaq ki, avqustun 26-da Prezident İlham Əliyev tviter səhifəsində Azərbaycan Ordusunun Laçın şəhərində yerləşməsi ilə bağlı paylaşım edib. Ali Baş Komandan həmin gün azərbaycanlıların Laçın şəhərinə qayıtdığının, Laçın şəhərinin, Zabux və Sus kəndlərinin nəzarətə götürüldüyünün müjdəsini verib. Bununla bağlı bütün laçınlıları və Azərbaycan xalqını təbrik edib.

# Kəmaləddin Heydərov yenidən müşavirə keçirdi

***Bu gün Fövqəladə Hallar Nazirliyində (FHN) nazir general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə müşavirə keçirilib.***

Bu barədə "Unikal"a FHN-in mətbuat xidmətindən xəbər verilib. Bildirilib ki, nazir müavini Tapdıq Əmiraslanov və nazirliyin aidiyyəti struktur bölmə və qurumlarının rəhbər heyətinin iştirak etdiyi müşavirədə FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin fəaliyyəti ilə bağlı məsələlər müzakirə edilib.

Əvvəlcə, nazir Kəmaləddin Heydərov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin ölkə əhalisinin və ərazilərinin təhlükəsizliyinin təmin edilməsi məsələlərinə hər zaman xüsusi həssaslıqla yanaşdığını qeyd edərək, bu istiqamətdə Fövqəladə Hallar Nazirliyinin üzərinə ciddi vəzifələrin düşdüyünü xatırladıb. Odur ki, ölkə başçısının ali etimadını əməli işdə doğrultmaq üçün bundan sonra da Nazirliyin şəxsi heyəti var gücü ilə çalışmalıdır.



Sonra Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin fəaliyyəti ilə əlaqədar hesabatı dinlənilib. Qeyd olunub ki, çimərliklərdə, su hövzələrində və digər sututarlarda, dənizkənarı kütləvi istirahət yerlərində axtarış-xilasetmə tədbirlərini, habelə dalğıc-axtarış işlərini, insanların sularda təhlükəsizliyinin təmin edilməsi vəzifəsini həyata keçirən Xidmətin səmərəli fəaliyyəti sayəsində cari ildə də çimərlik ərazilərində suda boğulma halı qeydə alınmayıb. Vurğulanıb ki, təhlükəsizlik tədbirləri təkcə Abşeron yarımadasında deyil, digər şəhər və rayonların sahilboyu ərazilərində də həyata keçirilir. Bundan əlavə, Xidmətin əsas vəzifələrindən olan kiçikhəcmli gəmilərin təhlükəsiz istismarına nəzarətin təşkili ilə bağlı görülən işlər barədə də ətraflı məlumat verilib.

Müşavirəyə yekun vuran nazir Kəmaləddin Heydərov sularda təhlükəsizliyin təmin edilməsi istiqamətində Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin üzərinə düşən mühüm vəzifələri xatırladıb. Nazir həlli vacib məsələləri qeyd edərək, müvafiq tapşırıqlarını verib.

# İran və Ermənistan sərhəddə birgə ticarət və texnologiya şəhərləri tikəcək

***İran və Ermənistan sərhəddə birgə ticarət və texnologiya şəhərləri tikəcək.***

"Unikal" İRNA-ya istinadən xəbər verir ki, Şərqi Azərbaycan vilayətinin qubernatoru Abedin Xorram Azərbaycan Respublikasına səfərindən sonra qonşu ölkələrə ikinci səfəri zamanı bu əyalətin iqtisadi və ticarət xadimlərindən ibarət nümayəndə heyətinə rəhbərlik edib.

Əyalət ticarət və iqtisadi nümayəndə heyətinin Ermənistandakı məqsədlərinə toxunan Xorram qeyd edib ki, bu səfərin ən mühüm məqsədləri "gömrük və nəqliyyat məsələlərini izləmək, iki ölkə



sərhədində müştərək ticarət şəhəri və İran və Ermənistan arasında müştərək texnologiya şəhərinin yaradılmasıdır.

"Bu səfər sərhəd imkanlarından istifadə və vilayətin beynəlxalq əlaqələrinin inkişafı və hökumətin malik olduğu səlahiyyətlər əsasında həyata keçirilir", - Xorram jurnalistlərə bildirib.

Onun sözlərinə görə, qonşu dövlətlərlə münasibətlərin inkişafı və regional bazarlarda fəal iştirak 13-cü hökumətin diplomatiya sahəsində siyasətinin əsas və strateji istiqamətlərindən biridir və "Şərqi Azərbaycan bir neçə dövlətin qonşuluğunda olmaqla, bölgədəki əhəmiyyətli dövlətlərin bu siyasətin həyata keçirilməsində əhəmiyyətli qatqısı var."

"Bu səfər zamanı həmçinin ölkənin iqtisadiyyat naziri, ətraf mühit naziri, regional idarətmə və infrastruktur naziri, iqtisadiyyat nazirinin müavini kimi dövlət rəsmiləri ilə görüşlər və danışıqlar planlaşdırılır.

# Şükür Həmidovun qızı tələbə adını qazandı

***Azərbaycanın Milli Qəhrəmanı, Vətən müharibəsi şəhidi Şükür Həmidovun qızı tələbə adını qazanıb.***

"Unikal" xəbər verir ki, ali məktəblərə qəbul imtahanında uğurlu nəticə əldə edən Milli Qəhrəmanın qızı Əzizə Həmidova Azərbaycan Pedaqoji Universitetinə qəbul olunub.

Qeyd edək ki, Əzizə Həmidova bu il Qubadlı rayonu Xıdırlı kənd tam orta məktəbindən məzun olub.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# President İtaliyada akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimində

***Sentyabrın 1-də Romada İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Əvvəlcə sazişlərin mübadiləsi oldu.

"İtaliya-Azərbaycan Universiteti üzrə ADA Universiteti və Luiss Guido Carli Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Luiss Guido Carli Universitetinin vitse-prezidenti professor xanım Paola Severino mübadilə etdilər.

"İtaliya-Azərbaycan Universiteti üzrə ADA Universiteti və Romanın Sapienza Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Romanın Sapienza Universitetinin rektoru professor xanım Antonella Polimeni mübadilə etdilər.

"İtaliya-Azərbaycan Universiteti üzrə ADA Universiteti və Turin Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Turin Politexnik Universitetinin rektoru, professor Guido Saraçço mübadilə etdilər.

"İtaliya-Azərbaycan Universiteti ilə bağlı ADA Universiteti və Alma Mater Bolonya Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Alma Mater Bolonya Universitetinin İcraçı prorektoru professor xanım Simona Tondelli mübadilə etdilər.

"ADA Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Milan Politexnik Universitetinin Dizayn Departamentinin direktoru professor Alessandro Deserti mübadilə etdilər.

Sənədlərin mübadiləsindən sonra dövlətimizin başçısı çıxış etdi.

Mərasim iştirakçılarını salamlayan Prezident İlham Əliyev dedi:

- Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Mən sizi səmimiyyətlə salamlayıram.

Azərbaycan səfirliyinə xoş gəlmisiniz.

Bugünkü mərasim Azərbaycan səfirliyinin yeni binasında keçirilir. Onu da deməliyəm ki, bu, yeni binada keçirilən ilk tədbirdir. Romanın tarixi məhəlləsində yerləşən bu tarixi bina bu gün öz qapılarını açır və eyni zamanda, bu binada Azərbaycanın Mədəniyyət Mərkəzi də fəaliyyət göstərəcək.

Mən çox şadam ki, bu binada keçirilən ilk tədbir məhz təhsil sahəsinə aiddir. Bu gün İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi açılır. Təhsil sahəsində biz yeni genişmiqyaslı əməkdaşlığa başlayırıq. İki il bundan əvvəl İtaliyada dövlət səfərində olarkən mən bu təkliflə çıxış etmişdim ki, İtaliya-Azərbaycan Universiteti yaradılsın. İtaliya rəhbərliyi də bunu alqışladı və qısa müddət ərzində artıq biz praktiki fəaliyyətə başlayırıq.

Bu ilin aprel ayında Bakıda ADA Universitetinin kampusunda İtaliya xarici işlər naziri cənab Luici Di Maionun iştirakı ilə yeni tədris korpusunun təməli qoyuldu. İtaliyanın aparıcı universitetləri ilə ADA Universitetinin əməkdaşlığı iki ölkə arasındakı dostluq əlaqələrini möhkəmləndirəcək. Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti, Roma Sapienza Universiteti - bu adlar İtaliyanın kənarında da məşhurdur. Onu da bildirməliyəm ki, İtaliya-Azərbaycan Universitetinin nəzdində iki institut - Kənd Təsərrüfatı və Qida Elmləri İnstitutu və Dizayn və Memarlıq İnstitutu fəaliyyət göstərəcək.

İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır. Bizim çox güclü siyasi-iqtisadi əlaqələrimiz mövcuddur. İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 9,6 milyard, bu ilin yeddi ayında isə 11 milyard dollara çatıb.

Bugünkü mərasim isə onu göstərir ki, biz gələcəkdə təhsil sahəsində də strateji tərəfdaş kimi fəaliyyət göstərəcəyik. Heç kimə sirr deyil ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, bilik, savad, texnoloji tərəqqi müəyyən edir. Biz Azərbaycanda təbii resurslardan əldə edilmiş gəliri insan kapitalına yönəldirik və bugünkü tədbir bunun əyani sübutudur. Eyni zamanda, əminəm ki, İtaliya-Azərbaycan Universiteti İtaliya-Azərbaycan dostluğu mərkəzi olacaq. Bir sözlə, mən hesab edirəm ki, bu gün biz tarixi hadisənin şahidiyik. Bu gün mənim İtaliyaya işgüzar səfərimin birinci günüdür və birinci tədbiridir. Əminəm ki, İtaliya rəhbərləri ilə keçiriləcək görüşlər bizim dostluğumuzu, tərəfdaşlığımızı daha da möhkəmləndirəcək.

Bir daha hamınızı bu gözəl tarixi hadisə münasibətilə təbrik edirəm.



Daha sonra İtaliya Respublikası Ekoloji Keçid Nazirliyinin dövlət katibi xanım Vannia Qava, İtaliya-Azərbaycan Universiteti üçün tərəfdaş italyan universitetləri adından Luiss Guido Carli Universitetinin vitse-prezidenti professor xanım Paola Severino və ADA Universitetinin rektoru professor Hafiz Paşayev çıxış etdilər.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, bu il İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun ölkəmizə səfəri çərçivəsində aprelin 2-də Bakıda ADA Universitetinin kampusunda təməli qoyulan İtaliya-Azərbaycan Universiteti Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. İtaliya-Azərbaycan Universitetinin yaradılması barədə razılıq Prezident İlham Əliyevin 2020-ci ildə İtaliyaya dövlət səfəri zamanı əldə olunub.

Bu ali təhsil ocağında tədris olunacaq akademik proqramlar iqtisadiyyatın strateji sektorlarını əhatə edəcək və yüksəkixtisaslı mütəxəssislər yetişdirəcək. Universitet, eyni zamanda, kənd təsərrüfatı və qida sənayesi, mühəndislik, o cümlədən elektrik və elektronika, nəqliyyat və infrastruktur mühəndisliyi, memarlıq, həmçinin şəhərsalma və landşaft memarlığı, dizayn, sosial elmlər, biznesin idarə olunması, italiyaşünaslıq və digər istiqamətlər üzrə təcrübə, nou-hau, texnologiya və innovasiyaların tətbiq ediləcəyi elm və bilik ocağı olacaq.



## "Türkiyə və Azərbaycan hər zaman Pakistanın yanında olub" - Səfir

***Pakistanın Azərbaycandakı səfiri Bilal Hayee və Türkiyə səfiri Cahit Bağçı görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə pakistanlı diplomat "Twitter"də paylaşım edib.

"Qardaşım Türkiyənin səfiri Cahit Bağçıya ziyarətinə və Pakistanda baş verən daşqınlar nəticəsində insan tələfatı və dağıntılarla əlaqədar verdiyi başsağlığına görə minnətdaram. Türkiyə və Azərbaycan hər zaman Pakistanın yanında olub", - deyə səfir bildirib.

## Son sutkada 561 nəfər koronavirusa yoluxub

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 561 yeni yoluxma faktı qeydə alınıb, 595 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, ölən olmayıb.

İndiyədək ölkədə ümumilikdə 813 998 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 800 722 nəfər müalicə olunaraq sağalıb, hazırda 3 471 aktiv xəstə var. Bu günə qədər 9 805 nəfər vəfat edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 071, bu günə qədər isə ümumilikdə 7 159 317 test icra olunub.

## Bu ali məktəblərdə qəbul planı tam doldu

***Xəbər verdiyimiz kimi, ötən gün Dövlət İmtahan Mərkəzi (DİM) ali məktəblərə qəbulun nəticələri açıqlayıb.***

"Unikal" xəbər verir ki, ümumilikdə 2022/2023-cü tədris ili üçün altı ali məktəbdə qəbul planı yüz faiz dolub.

Həmin müəssisələrin siyahısını təqdim edirik:

Azərbaycan Tibbi Universiteti
Azərbaycan Dövlət Dəniz Akademiyası
Dövlət İdarəçilik Akademiyası
Bakı Ali Neft Məktəbi
"ADA" Universiteti
Dövlət Gömrük Komitəsinin Akademiyası.

## Yoluxanların sayı açıqlandı

***Azərbaycanda son sutkada koronavirus infeksiyasına 561 yeni yoluxma faktı qeydə alınıb, 595 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada COVID-19-dan vəfat edən olmayıb.

# “Azərbaycanda oliqarx biznesi var, bu gün də davam edir”

## Vahid Əhmədov: “Ölkədə kifayət qədər varlanmış insanlar peyda olub, düz yolla o qədər vəsaiti qazanmaq qeyri-mümkündür”

***Milli Məclisin deputatı Vahid Əhmədov “Unikal”a müsahibə verib. V.Əhmədov ölkədə davam edən qiymət artımı, məmur biznesi və bunun yaratdığı neqativ nəticələr barədə fikirlərini bölüşüb.***

-Bahalaşma çox ciddi məsələdir. Bu, tək Azərbaycanla əlaqədar deyil. Xarici dövlətlərdə də çox ciddi bahalaşma gedir. Bu, həm Rusiya-Ukrayna müharibəsi, həm də dünyada olan müəyyən ərzaq qıtlığı ilə bağlıdır. Ərzaq çatışmazlığı olduğu üçün bahalaşma var. Azərbaycana kifayət qədər ərzaq məhsulu idxal edilir. Həmin məhsullarla bərabər həm inflyasiya, həm də qiymət artımı idxal edirik. Qeyri-neft sektorunun inkişafı üçün İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən işlər görülüb. Regionların iqtisadi inkişafı proqramı çərçivəsində müəyyən işlər aparılıb. Regionlarda infrastruktur layihələri həyata keçirilib. Amma qeyri-neft sektorunun inkişafına kifayət qədər nail ola bilməmişik. Xüsusilə, ərzaq məhsullarının istehsalını qeyd etmək istərdim. Qeyri-neft sektoru ilə bağlı ciddi problemimiz olduğu, ərzağı əsasən kənardan idxal etdiyimiz üçün qiymət artımı var. Bu, obyektiv qiymət artımıdır və bunun qarşısında nə isə etmək mümkün deyil.

Bundan başqa, subyektiv qiymət artımı da var. Yəni, bizim bəzi sahibkarlar, möhtəkirlər, belə bir vəziyyətdən istifadə edərək süni şəkildə qiymətləri artırırlar. Məsələn, yanacağın qiyməti artırsa, qiyməti 10 faiz artırmalıdırlarsa, bunlar 20-30 faiz artırırlar.

***-Bəs hökumətin buna qarşı nəticəli fəaliyyəti niyə yoxdur?***

-Bununla bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti müəyyən monitorinqlər aparır. Hesab edirəm ki, bu sahədə daha ciddi işləmək lazımdır. Minlərlə akt, cərimə tərtib edirlər, amma yenə də süni qiymət artımına rast gəlirik. Son iclasların birində Prezident İlham Əliyev süni qiymət artımları ilə bağlı fikirlərini bildirdi ki, bunun qarşısını almaq lazımdır. Hesab edirəm ki, Avropada inflyasiya 10-11 faizdirsə, bizdə bu rəqəm çox yüksəkdir. Rəsmi olaraq deyilir ki, inflyasiya 18 faizdir. Amma özüm bazarlıq etdiyim üçün qiymətin kifayət qədər yüksək olduğunu görürəm. İndiki pensiya, müavinət ilə bu qiymət artımının qarşısını almaq qeyri-mümkündür. Pensiya, müavint aşağıdır. Bunların qarşısını almaq üçün antiinflyasiya tədbirləri olmalıdır. Doğrudur, bunlar hazırlanıb. Milli Məclisdə hökumətin hesabatında bu məsələyə toxunduq, Baş nazir Əli Əsədovun göstərişi ilə tədbirlər hazırlandı, müəyyən işlər getdi. Amma dövlətin müəyyən rıçaqları var ki, onlardan istifadə etmək lazımdır. Bunlardan biri süni qiymət artımının qarşısını almaqdır. Biz idxal olunan bütün məhsullara, o cümlədən ərzaq məhsullarına 18 faiz ƏDV tətbiq etmişik. 10 ildən çoxdur ki, Milli Məclisdə məsələ qaldırıram ki, ƏDV-ni differensiallaşdırmaq lazımdır. Yəni, elə məhsul var ki, ona 30 və ya 35 faiz ƏDV tətbiq etmək olar. Bura avtomobil, elektron cihazlar, mebel dəstləri və s. daxildir. Bu bir neçə ildən bir lazım olur. Bunları artırmaq olar. Amma ərzaq məhsullarına tətbiq olunan ƏDV-ni 1-2 faiz etmək lazımdır. Bunun nəticəsində qiymətlər azalacaq.

***-Amma hələki bütün bunlar təklif olaraq qalır...***

-Təəssüf ki, hökumət hələ buna getmir. Gömrük rüsumları var. Onlar 0-dan 15-ə qədərdir. Bunların artıb-azaldılması ilə bağlı hökumətə təklif vermişik. Hökumət istənilən vaxt ölkədə məhsulun azlığından, çoxluğundan və s. istifadə edərək, ölkənin daxili bazarını qorumaq üçün bunu artırıb və ya azalda bilər. Hökumət bundan da istifadə etməlidir. Hansı məhsullar ki, Azərbaycana daha çox lazımdır, daxili bazarda tələbat böyükdür, orada rüsumlar aşağı salınmalıdır. Tələbat olmayan məhsulların gömrük rüsumlarını artırmalıdır. Hökumət əlində olan bu rıçaqlardan çevik istifadə etməlidir ki, ciddi problem olmasın. Son vaxtlar unun qiymətində artım oldu. Buna dünyada buğdanın qiymətinin artması da təsir edir. Ərzaq buğdasının 80 faizini idxal edirik. Bu qiymət artımı ilə çörək istehsalçıları üçün şərait yaradıldı ki, ziyana işləməsinlər, problem yaranmasın. Elə insanlar var ki, onların təqaüdləri, müavinətləri çox aşağıdır. Məsələn, ictimai işlərlə məşğul olan şəxslər var. Onlara ayda 300 manat maaş verilir. Bu, qiymət artımının qarşısında azdır. Həmçinin, 250-300 manat pensiya alanlar da var. Onların müəyyən qədər tələbatını ödəmək üçün artımlara ehtiyac var. Aldığım məlumata görə, hazırda hökumətdə bu məsələyə baxılır. Yəqin ki, müəyyən qərarlar veriləcək.

***-Son günlər qarşıdakı dövrdə böhranın və qıtlığın olacağı ilə bağlı narahatlıqlar var. Bu barədə nə deyə bilərsiniz?***

-Un və buğda ilə bağlı elə bir ciddi problem yoxdur. Müəyyən xəbərlərə rast gəlirəm ki, un ehtiyatı azalıb və s. Kifayət qədər ehtiyatımız var. Bu yaxınlarda İqtisadiyyat naziri Mikayıl Cabbarov qıtlıqla bağlı bəyanat səsləndirdi. Əlbəttdə, dünyadan gedən proseslər onu göstərir ki, qıtlıq yaxınlaşır. Qış fəslində qiymət artımı daha çox ola bilər. Yay mövsümü olduğu üçün bu dövrə aid meyvələr, tərəvəzlər var və qiymət müəyyən qədər aşağıdır. Payız, qış fəslində isə qiymət artımı baş verəcək. Azərbaycanda qıtlıq gözləmirəm. Ölkəmizin kifayət qədər maliyyə ehtiyatı var. İstənilən vaxt həmin vəsaitdən istifadə etməklə dünyanın istənilən ölkəsindən ərzaq almaq olar. İnflyasiya, qiymət artımı problemi olacaq.

***-Vahid müəllim, inkar etməzsiniz ki, ölkədə məmur-biznesi var və iqtisadiyyata ciddi təsir edir. Necə düşünürsünüz, mövcud iqtisadi problemlərin kökündə bu amil dayanmırmı?***

-Azərbaycanın müstəqilliyi dövründə müəyyən ciddi problemlərlə üzləşmişik. 2003-cü ildən sonra Prezident İlham Əliyev dövlət başçısı seçildikdən sonra neftdən daha çox gəlirlər gəlməyə başlayıb, Azərbaycanda ehtiyatlar yaranıb. Bu dövrdə Azərbaycanda kifayət qədər varlanmış insanlar peyda olub. Düz yolla o qədər vəsaiti qazanmaq qeyri-mümkündür.Onlar dövlət büdcəsi hesabına bu vəsaiti toplayıblar. Təəssüf edirəm ki, həmin vəsaitin əksəriyyətini xaricə çıxarıblar, Azərbaycan üçün istifadə etməyiblər. Ölkəmizdə zavodlar, fabriklər tiksəydilər, bu gün işsizlik aşağı səviyyədə olardı, əhalinin ərzaq problemi də olmazdı. Azərbaycanda oliqarx biznesi var, bu gün də davam edir. Bəzən deyirlər ki, monopoliya yoxdur. Yalan söhbətdir, var. Parlamentdə 10 ildən çoxdur ki, Rəqabət Məcəlləsini qəbul etməliyik. Bunun qəbul edilməsində əsas məqsəd bazarda azad rəqabəti bərpa etməkdir. Yəni, hər kəs eyni səviyyədə bizneslə, ticarətlə məşğul ola bilsin. İlk vaxtlar Məcəllə iki oxunuşda qəbul olundu. Amma üçüncü oxunuşa çıxarmağa qoymadılar.

***-Onlar kimlərdir ki, qanunverici hakimiyyətin fəaliyyətini tormozlaya bilirlər?***

-Onlar kifayət qədər vəsaiti olan insanlardır. Burada milyardlardan söhbət gedir. Hamı bilir ki, bu pullar kimlərdədir. Son iki ildə bu məsələni Milli Məclisdə ciddi qaldırdıq. Keçən hökumətin iclasında Baş nazir Əli Əsədov bildirdi ki, Məcəlləni qəbul edəcəyik. İqtisadiyyat Nazirliyi Rəqabət Məcəlləsini hazırladı və bir neçə nazirliklə razılaşdırdılar. Onu Nazirlər Kabinetinə təqdim etdilər. Onun bir nümunəsini mənə də təqdim ediblər. Çox yaxşı qanun layihəsidir. Gözləyirik ki, müzakirə olunması üçün qarşıdan gələn payız sessiyasında parlamentə təqdim edəcəklər. Deməzdim ki, onun qəbul olunması ilə məsələlər 100 faiz düzələcək. Hardasa, Azərbaycanın daxili bazarına 20-30 faiz təsir edəcək. Qiymətlərə təsir etməklə yanaşı, oliqarxların biznesinin əlindən alınmasına kömək olacaq, əziyyət çəkən sahibkarlar üçün şərait yaradılacaq. Bir neçə təklif etmişəm ki, gəlin, maliyyə amnistiyası verək. Bu pulları həmin insanlar qazanıblar. Əyri və ya düz olaraq qazanıblar. Müəyyən hissəsini xaricə çıxarıblar, bir hissəsini də yastığın altında saxlayırlar. Maliyyə amnistiyası elan edək, onlar xaricdəki vəsaiti gətirib burada zavod, fabrik tikib iş yerləri yaratsınlar. Qanun qəbul edək ki, həmin vəsaitdən narkobizneslə, terrorizmlə əlaqədar işlərdə istifadı etmək olmaz. O vəsait yalnız investisya şəklində Azərbaycana gətirilsin. Keçmiş sovet respublikası ölkələrinin çoxunda belə qanun qəbul olunub, müsbət nəticəsi var. Bizdə də qəbul edilməsinə böyük ehtiyac var. Həm əmlak, həm də maliyyə vəsaitlərinə amnistiya verilməsinə ehtiyac var. Bu da Azərbaycanda ictimai-siyasi vəziyyətin stabilləşməsinə kömək edə bilər.

Həmin şəxslər müəyyən qanunlara riayət etməyiblər, qərarları pozublar, oğurluq yolla bu vəsaiti əldə ediblər. Bu vəsait haradan alınıb? Əsasən dövlət büdcəsindən. Məsələn, dövlət büdcəsindən hansısa nazirliyə vəsait ayrılır ki, müəyyən işlər görülsün və s. Onların əksər hissəsini mənimsəyib özləri üçün biznes və s. yaradıblar. İndi də bir sıra nazirliklərdə, icra hakimiyyətlərində, komitələrdə belə hallar var.

***-Yaxşı bu vəziyyətdən çıxış yolu yoxdurmu?***

-Bizim müəyyən təkliflərimiz var. Elə ona görə maliyyə amnistiyasını istəyirik ki, insanlar başa düşsün ki, bu oğurluq pulun harada gizlədilməsindən asılı olmayaraq gec-tez Azərbaycana gətiriləcək. Dövran belə gedən deyil axı. Korrupsiya ilə mübarizə tədbirləri görülür. Bu yaxınlarda Böyük Britaniyada nə qədər maliyyə vəsaitinə həbs qoydular. Ona görə ki, bu vəsait oğurlanıb aparılıb. Çünki həmin vəsaiti qazanma mənbəyini göstərə bilmirsən. Ölkəmizdə gəlir deklarasiyası yoxdur. Hər bir məmurun gəlir deklarasiyası olmalıdır. Ayın sonunda göstərməlidir ki, nə qədər vəsaiti və haradan qazanıb. Bununla bağlı qanun imzalanıb, Nazirlər Kabinetinə tapşırıq verilib ki, normativ sənədlər hazırlasınlar. Həmin sənəd bu günə kimi hazırlanmayıb. Görünür kimlərəsə sərf edir deyə gəlir deklarasiyası qəbul olunmur.

***-Məlum olduğu kimi, işğaldan azad olunan ərazilərdə quruculuq işlər başlayıb. Həmin ərazilərin iqtisadi potensialı və orada görüləcək işlər barədə fikirləriniz maraqlı olardı...***

-Azad edilmiş ərazilərin iqtisadiyyatı ilə bağlı qeyd etmək istərdim ki, orada 1 milyon kvadratmetrə yaxın istifadə olunmamış torpaqlar var idi. Ermənistan taxılının 60 faizini bu ərazilərdən götürürdü. Hazırda ölkəmiz tərəfindən həmin yerlərdə bu işlər görülür. İşğaldan azad olunmuş ərazilərdə sənaye parkları tikilir. Bundan başqa 3 rayonda hava limanı tikilir. Bunlardan biri artıq istifadəyə verilib. Əsas məqsədimiz həmin yerlərə əhalini köçürməkdir. Əhalini nə qədər tez sərhəd bölgələrə köçürə bilsək, ondan sonra təsərrüfatı inkişaf etdirmək rahatdır. Kəlbəcər turizm zonasıdır. Qarabağ bölgəsi böyük ehtiyatlara malikdir. Onların hamısından istifadə olunacaq. İşğaldan azad edilmiş hər bir rayonun baş planı var. Ona uyğun olaraq tikinti işləri aparılır. Bu günlərdə belə fikir paylaşıldı ki, Şuşaya 2040-cı ilə qədər əhali köçürüləcək. Bunu qəbul etmirəm. O vaxta 18 il var. Bu müddətdə inanmıram ki, bu məsələlərin hamısı həllini tapmasın. Şuşaya əhali də köçürüləcək, işlər də bitəcək. Bu əraziyə diqqət böyükdür. Dövlət başçısı elə bir ay olmur ki, Şuşaya səfər etməsin. Bu ərazilərdə görülən işlərin hamısı Azərbaycan dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir. Heç bir xarici maliyyə qurumundan vəsait götürməmişik. Orada həmin ölkələrin şirkətləri çalışır ki, 44 günlük Vətən müharibəsində Azərbaycanı müdafiə ediblər. Kifayət qədər yatırım qoymaq istəyənlər var. İşlərin görülməsində Türkiyə dövləti yaxından iştirak edir. Türkiyə ilə imzaladığımız Şuşa Bəyannaməsi hər iki dövlət üçün böyük əhəmiyyət kəsb edir. Buna uyğun olaraq Türkiyə dövləti Azərbaycanın təhlükəsizlik zəmanətidir. Azərbaycana hansısa dövlət hücum etmək istəsə, qarşısında Türkiyəni görəcək. Bütün sahələrdə ciddi əməkdaşlıq var.

***Söhbətləşdi: Zaur Əhməd***



# Mədəniyyət Nazirliyində Əbülfəs Qarayev küləkləri əsir...

## Bu qurumda rüşvət və korrupsiyanın kökünü kəsmək niyə mümkün olmur? - Anar Kərimov üçün SOS!

***Bir müddət əvvəl məlumat yayıldı ki, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2021-ci il və 2022-ci ilin birinci yarısında Mədəniyyət Nazirliyinin müraciəti əsasında 11 halda araşdırma aparılıb.***

Araşdırmalar nəticəsində Bakı şəhəri, Bərdə, Şamaxı, Ağcabədi və Kürdəmir rayonları ərazisində yerləşən mədəniyyət müəssisələrinin rəhbər vəzifəli şəxslərinin əsasən dələduzluq, mənimsəmə və israf etmə, rüşvət alma, vəzifə səlahiyyətlərindən sui-istifadə və vəzifə saxtakarlığı cinayətləri törətmələri faktlarına dair 8 cinayət işi başlanıb.



Bunlardan 4 şəxs barəsində 4 cinayət işi baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilib, 1 cinayət işi üzrə dövlətə vurulmuş zərərin ödənilməsi təmin edildiyindən icraata xitam verilib, 3 cinayət işi üzrə isə hazırda istintaq davam etdirilir.

Dövlət büdcəsinə vurulmuş 1 milyon 870 min manat zərərin 917 min manat hissəsinin istintaq dövründə ödənilməsi təmin edilib.

Düzdür, sözügedən cinayət işləri çərçivəsində konkret olaraq nəyin araşdırıldığı və kimlərin məsuliyyətə cəlb edildiyi açıqlanmır. Lakin görünən odur ki, Mədəniyyət Nazirliyinin strukturlarında hələ də qanundankənar əməllər davam etdirilir, bir çox vəzifəli şəxslər Əbülfəs Qarayevin nazir olduğu dönəmə xas olan zərərli vərdişlərindən əl çəkmək istəmirlər.

Xatırladaq ki, 2020-ci il mayın əvvəllərində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Mədəniyyət Nazirliyində əməliyyat keçirmiş, nəticədə Mədəniyyət nazirinin müavini Rafiq Bayramov və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov həbs edilmişdi. Sonradan Rafiq Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Zakir Sultanov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarında ittiham olunurdu.

Düzdür, ozamankı nazir Əbülfəs Qarayevin də məsuliyyətə cəlb ediləcəyi barədə həmin vaxt müxtəlif iddialar səslənir, fərziyyələr irəli sürülürdü. Əslində, bunun üçün kifayət qədər əsaslar da var idi. Çünki adıçəkilən nazirlikdə rüşvət və korrupsiyanın miqyası elə geniş idi ki, Qarayevin bu qanunsuzluqlardan xəbərdar olmamasına dünyanın ən sadəlöhv insanı belə inanmazdı.

Hər bir halda Əbülfəs müəllim yaranmış situasiyadan vəzifəsini itirməklə çıxa bildi. Bir çoxlarının fikrincə, bu, sabiq nazir üçün ən uğurlu variant sayıla bilər. Hərçənd onun həbs təhlükəsindən tam qurtulmadığını düşünənlər də az deyil. Bu cür fikirləşənlər sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun vəzifədən uzaqlaşdırdıqdan xeyli sonra cinayət məsuliyyətinə cəlb olunmasını və həbsə göndərilməsini misal göstərirlər. Lakin Qarayevlə bağlı proseslərin hansı istiqamətdə inkişaf etməsindən asılı olmayaraq bir həqiqət danılmazdır: eksnazir vəzifədə olmasa da, onun Mədəniyyət Nazirliyindəki kadrları iki il öncə baş verənlərdən lazımi nəticə çıxarmayıblar, yaxud Əbülfəs müəllimin nazirlikdə qoyub getdiyi rüşvət və korrupsiya mexanizmi elə möhkəmdir ki, orada bəziləri hələ də rüşvətxor, korrupsioner əməllərindən əl çəkməyiblər.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2021-ci il və 2022-ci ilin birinci yarısı üzrə Mədəniyyət Nazirliyi ilə bağlı 11 halın araşdırılması, həmin araşdırmalar nəticəsində 8 cinayət işinin başlanması da yuxarıda dediklərimizin təsdiqidir. Həqiqətən izah etməkdə çətinlik çəkirik: 20202-ci ildə genişmiqyaslı anti-korrupsiya əməliyyatının aparıldığı, yüksək vəzifəli şəxslərin həbs edildiyi bir nazirliyin əməkdaşları necə ola bilər ki, bundan hər hansı dərs çıxarmasınlar, ibrət almasınlar, yeyintiyə, rüşvətə davam etsinlər?! Onlar bu cəsarəti kimdən alırlar? Hərçənd, sözügedən anormallığın cəsarətlə yox, yalnız və yalnız abdallıqla əlaqəsi ola bilər...

Doğrudanmı, belələri “Dərsini kimdən aldın? - Gözü çıxmış qardaşdan...” məsəlini belə unudublar?!

Doğrudanmı, belələri uluların “su axdığı yerdən bir də axar” kəlamını yaddan çıxarıblar və post tutduqları qurumda yeni anti-korrupsiya əməliyyatının keçirilməsinin mümkünlüyünü tamamilə gözardı edirlər?!

Və sonda:

Deyilənlərdən aydın olur ki, Əbülfəs Qarayev mədəniyyət naziri postundan kənarlaşdırılsa da, Mədəniyyət Nazirliyində onun “miras” qoyub getdiyi zərərli ənənələri, ziyanlı əməlləri tərgitmək fikrində olmayanlar yetərincədir. Bu, eyni zamanda, o deməkdir ki, hazırki nazir Anar Kərimovun rəhbəri olduğu qurumda kadr islahatları aparması, bu yolla Ə.Qarayevin qalıqlarını təmizləməsi qaçılmazdır. Əks təqdirdə, eks-nazirin qoyub getdiyi rüşvət, korrupsiya mexanizminə sadiq vəzifəlilər bir müddət sonra cənab Kərimovun özünü də çətin vəziyyətdə qoyacaqlar.

Bunu biz demirik, bunu təcrübə deyir.

***Sənan Mirzə***




# "Ordumuz istənilən təxribatın qarşısını almağa hazırdır" - Anar Eyvazov

***“Artıq Laçın şəhəri və iki kənd bizim nəzarətimizdədir”.***

”Unikal” xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik-leytenant Anar Eyvazov deyib.

MN rəsmisi bildirib ki, hazırda Azərbaycan Ordusunun bölmələri nəzarətə götürülmüş ərazilərdə mövqelərin dəqiqləşdirilməsi və yeni dislokasiya məntəqələrində bölmələrin yerləşməsi prosesini həyata keçirir:

”Mühəndis qoşunları tərəfindən mina axtarma işləri davam etdirir. Qeyd edim ki, Laçın şəhərində avqustun 15-dən bu günə qədər 1300-dən artıq piyada əleyhinə mina aşkar edilib. Bu minaların müharibədən sonra Ermənistan Respublikasında istehsal olunması müəyyən edilib. Bu da Azərbaycan Ordusuna və əhalisinə qarşı təcavüzün göstəricisidir”.

A.Eyvazov qeyd edib ki, hazırda burda olan hərbi qulluqçuların sosial məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər aparılır: ”Azad edilmiş digər ərazilərdə olduğu kimi, burada hər şey çox yüksək səviyyədə təşkil ediləcək”.

Mətbuat xidmətinin rəisi əlavə edib ki, bir həftə ərzində Ermənistan tərəfindən Laçın və Laçın ətrafı ərazilərdə təxribat xarakterli fəaliyyətlər qeydə alınmayıb: ”Azərbaycan Ordusu istənilən təxribatın qarşısını almağa hər an hazırdır”.

# Türkiyədə Azərbaycan hərbçilərinə diplomlar təqdim edilib

***Türkiyədə təhsilini başa vuran Azərbaycan hərbçilərinə diplomlar təqdim edilib.***

Bu barədə “Unikal”a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, Türkiyənin Yalova vilayətində Milli Müdafiə Universitetinin Miçman İxtisaslaşdırma Məktəbinin məzunlarının növbəti buraxılış mərasimi keçirilib. Tədbirdə Türkiyə Hərbi Dəniz Donanmasının komandanı vitse-admiral Kadir Yıldız, Sahil Təhlükəsizlik Qüvvələrinin komandanı kontr-admiral Ahmet Kendir, məktəbin müəllim-professor heyəti və məzunların ailə üzvləri iştirak ediblər.

Azərbaycan ilə Türkiyə arasında hərbi təhsil sahəsində bağlanmış müqaviləyə əsasən, 2 illik hərbi təhsil proqramı üzrə Türkiyə Hərbi Dəniz Qüvvələri üçün miçman kadrlarının hazırlanmasında əhəmiyyətli rolu olan Miçman İxtisaslaşma Məktəbini müvəffəqiyyətlə bitirən Azərbaycan Ordusunun hərbi qulluqçularına diplomlar təqdim edilib.

Mərasimdə iştirak edən Azərbaycanın Türkiyədəki hərbi attaşelik aparatının nümayəndələri miçman rütbələrini almış hərbi qulluqçularımızı təbrik edib, onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar.

# "Sülhməramlılarımıza hücum Rusiyaya hücuma bərabərdir" - Lavrov

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov Dnestryanıdakı rus sülhməramlılarının təhlükəsizliyini təhdid edən hər hansı hərəkətin Rusiyaya hücum kimi qiymətləndiriləcəyini bildirib.***

”Unikal” TASS-a istinadən xəbər verir ki, bu barədə Rusiya XİN rəhbəri MDBMİ-nin tələbələri və professor-müəllim heyəti ilə görüşündə bildirib.

”Hər kəs başa düşməlidir ki, Dnestryanı bölgədəki hərbi qulluqçularımızın təhlükəsizliyinə təhlükə yaradan hər hansı bir hərəkət beynəlxalq hüquqa uyğun olaraq, Cənubi Osetiyada sülhməramlılarımızın hücuma məruz qaldığı kimi, Rusiyaya hücum kimi qiymətləndiriləcək”, - Lavrov qeyd edib.

***Ağarza Elçinoğlu***



## Bakı Baş Gömrük İdarəsi İsmayıl Hüseynova həvalə edildi

***Dövlət Gömrük Komitəsi (DGK) sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov yeni əmr imzalayıb.***

"Unikal"ın əldə etdiyi məlumata görə, əmrə əsasən Komitə sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov Bakı Baş Gömrük İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edəcək.

Qeyd edək ki, bir neçə gün əvvəl Bakı Baş Gömrük İdarəsinin rəisi Pərviz Kəngərli işdən çıxarılıb.

***Orxan Həsənli***

## Sərhəd pozucuları saxlanılıb - 22 nəfəri xaricidir



***Dövlət Sərhəd Xidməti tərəfindən 2022-ci ilin avqust ayı ərzində dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qaçaqmalçılıq, qeyri-leqal miqrasiya, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilib.***

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən "Unikal"a verilən məlumata görə, ay ərzində dövlət sərhədini pozduqlarına görə 67 nəfər saxlanılıb, onlardan 45 nəfəri Azərbaycan Respublikası, 1 Şri-Lanka, 1 Türkiyə, 1 Banqladeş, 7 Hindistan, 5 İran İslam Respublikası, 2 Özbəkistan, 5 Pakistan vətəndaşları olublar.

Etibarlı sərhəd nəzarətinin təşkili, qanunsuz miqrasiya ilə mübarizə fəaliyyətləri çərçivəsində 31 halda dövlət sərhədini saxtalaşdırılmış pasport, Şengen vizaları və tarix möhürləri ilə keçməyə cəhd göstərmiş 35 nəfər saxlanılıblar.

Sərhəd rejim qaydalarını pozduqlarına görə 673 halda 729 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb.

Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan Respublikası hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 237 nəfər aşkarlanaraq aidiyyəti orqanlara təhvil verilib, ölkədən çıxışı qadağan olan 537 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olan 17 nəfərin Azərbaycan Respublikasına daxil olmasının qarşısı alınıb.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində 156 kq 465 qram narkotik vasitə və 800 ədəd psixotrop həb qanunsuz dövriyyədən çıxarılıb.

Dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi və xilasetmə tədbirləri çərçivəsində 2 nəfər dənizdə batma təhlükəsindən xilas edilib.

Qaçaqmalçılıqla mübarizə fəaliyyətləri nəticəsində ümumi dəyəri təqribən 3 milyon 405 min 367 manat olan qaçaqmal, o cümlədən tütün məmulatları, zinət əşyaları və spirtli içkilər saxlanılıb.

Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.

# Hüseynqulu Bağırovun biznesindən ilginc xəbər

### Bir zamanların "ən fağır nazir"inin oğlu atası vəzifədə ikən onun işçisi ilə şərikli şirkət yaradıbmış

***Bu günlərdə yerli media Qusar Kommunal Müəssisələr Kombinatı tərəfindən keçirilən tender müsabiqəsinin (Kotirovka sorğusu) qalibi barədə yazdı. Bildirildi ki, tenderin qalibi fiziki şəxs Verdixanov Mübariz Eygün oğlu (VÖEN - 4700126292) olub. Tender müsabiqəsinin şərtlərinə görə Verdixanov Mübariz Eygün oğlu Qusar Kommunal Müəssisələr Kombinatına şəhərin park və küçələrində əkmək üçün müxtəlif növ (Eldar şamı, Kipares ağacı, Elandra ağacı, qızılgül və s.) ağac və güllər satacaq və qarşılığında 7 min 396 manat 60 qəpik alacaq. Lakin bu dövlət satınalması ilə bağlı ilginc məqamlar var. Məsələ burasındadır ki, Verdixanov Mübariz Eygün oğlu daha əvvəl fərdi sahibkar kimi Qusar rayon Kommunal Müəssisələri Kombinatı tərəfindən keçirilən tender müsabiqələrində dəfələrlə qalib olub. Eyni zamanda o, daha əvvəl də Qusar və Quba rayonunda fəaliyyət göstərən dövlət qurumlarının keçirdiyi çoxsaylı tenderlərdə qalib gəlib.***



Daha bir maraqlı məqam ondan ibarətdir ki, Mübariz Verdixanov fərdi sahibkar olmaqla bərabər həm də sabiq millət vəkili Asya Manafova ilə sabiq Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırovun ailə üzvləri tərəfindən qurulan şirkətlərə də rəhbərlik edir.

22 sentyabr 2008-ci ildə sabiq millət vəkili Asya Manafovanın qardaşı Mikayıl Manafov ilə sabiq ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırovun oğlu Lətif Bağırov "Safari Bak Upak" adlı şirkət təsis ediblər. Mübariz Verdixanov hazırda Mikayıl Manafov və Lətif Bağırov tərəfindən təsis olunan "Safari Bak Upak" MMC-nin (VÖEN- 4700270251) qanuni təmsilçisidir.

Qeyd edək ki, Asya Manafovanın qardaşı Mikayıl Manafov o zaman 5 saylı Quba-Qusar Ərazi Ekologiya və Təbii Sərvətlər şöbəsinin direktor müavini olub. Mikayıl Manafov Cinayət Məcəlləsinin 179.3.2-ci (qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israfetmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunaraq 5 iyun 2010-cu il tarixdə iş yerində həbs edilib. Məhkəmə onun barəsində 7 il 6 ay müddətinə şərti olaraq azadlıqdan məhrum edilməsi barədə qərar çıxarıb.

Mübariz Verdixanov eyni zamanda 1999-cu ildə təsis olunan "Safari" MMC-nin (VÖEN-4700020861) və 2001-ci ildə təsis olunan "Pioneer" tam ortaqlıq şirkətinin (VPEN- 4700023101) də qanuni təmsilçisidir.

Onu da bildirək ki, tender müsabiqəsini keçirən Qusar Kommunal Müəssisələr Kombinatı rayon İcra Hakimiyyətinə tabedir. "Yeniavaz.com"un yazdığına görə, 15 ildir Qusar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini icra edən Şair Alxasovun adı da 2020-ci ildə oğlu İlkin Alxasova məxsus 362,6 kv. metr sahəsi olan obyektin istismarına icazə verməsilə gündəmə gəlib.

Burada diqqəti xüsusi çəkən məqamlardan biri isə H. Bağırovdir. Sabiq ekologiya və təbii sərvətlər naziri H.Bağırovun oğlunu özəlliklə diqqət mərkəzinə gətirən isə atası ilə bağlı uzun müddət ictimai rəydə yaranan (yaxud yaradılan!) rəydir. Məsələ burasındadır ki, eks-nazir vəzifədə olarkən onun adı "ən fağır nazir" kimi bəhs edilirdi. Belə təəssürat formalaşdırılırdı ki, Bağırov və nazirliyi rüşvət, korrupsiya işlərindən uzaqdır, şəxsən Hüseynqulu müəllimin özü isə "bir həsirdir, bir Məmmədnəsir"...

Lakin o, nazir görəvindən kənarlaşdırılan kimi "açıldı sandıq, töküldü pambıq". Məlum oldu ki, Azərbaycanda çox sayda otelləri, digər obyektləri olan Bağırovun çoxprofilli biznes şəbəkəsi Böyük Britaniyadan Almaniyaya, Avstriyadan Kiprə, Çexiyadan Türkiyəyə, hətta Latviyayadək uzanır. O da Aydınlaşdı ki, Bağırovun vəzifədə olarkən qurub böyütdüyü biznesini Avropa ölkələrində və Türkiyədə oğlu Lətif Bağırov idarə edir. Hətta Böyük Britaniya mənbələrində göstərilir ki, 1979-cu ilin mayında anadan olmuş L.Bağırov Azərbaycan vətəndaşıdır, İngiltərə sakinidir, yəni bu ölkədə yaşamaq üçün biznes vizasına malikdir.

Bundan başqa, Latviyanın İnvestisiyalar və İnkişaf Agentliyinin (İnvestment and Development Agency of Latvia-LİAA) Azərbaycanla Latviya arasında iqtisadi-ticarət əlaqələrinə dair hesabatına əsasən H.Bağırovun ailə üzvləri bu ölkədə ən iri azərbaycanlı investorlar arasında yer aldığı ortya çıxmışdı. İki il öncə məlum olmuşdu ki, Latviyanın biznes reyestrindən (Lursoft) götürülmüş məlumatlara əsasən oğul Bağırovun bu ölkədə "Stamina Hospitality Services" və "Nordic Stamina" adlı şirkətlər açıb. Həmin şirkətlərdən birincisinin fəaliyyət sahəsi kimi otellərdə və analoji məkanlarda qonaqların yerləşdirilməsi xidməti göstərdiyi, ikincinin də özünə aid olan və icarəyə götürülmüş daşınmaz əmlakın təkrar icarəyə və ya lizinqə verilməsi ilə məşğul olduğu bildirilirdi.

H.Bağırovun ailə üzvlərindən Liana Bağırovanın isə Latviyadakı azərbaycanlı investorlar sırasında yer aldığı və yuxarıda göstərilən şirkətlərin səhmdarı kimi göstərildiyi bildirilmişdi. İndi isə bir zamanların "ən fağır nazir" imicli məmurunun oğlunun atası vəzifədə ikən onun işçisi ilə şərikli şirkət yaratdığı aydınlaşır.

Hüseynqulu müəllim "ən fağır nazir" imiş, fağır olmasaymış, kim bilir, bəlkə də, dünyanın yarısını öz biznes imperiyasına tabe etdirəcəkdi...

***Toğrul Əliyev***

# Əsabil Qasımovun növbəti tikinti qalmaqalı

## Sabiq deputat vətəndaşları narazılığa sürükləməkdə davam edir

***Sabiq deputat, biznesmen Əsabil Qasımov növbəti qalmaqalla gündəmə gəlib. Belə ki, onun Bakı şəhərində vətəndaşların yaşadıqları evin yaxınlığında məsafə olmadan tikinti aparması sakinlərin kəskin narazılığına səbəb olub.***

Yerli KİV-in yazdığına görə, onlar bildiriblər ki, ərazidə təhlükəsizlik qaydalarına əməl edilmədən bina inşa edilir. Söhbət Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi, 998-ci məhəllə ünvanında yerləşən, 19 mərtəbəli yaşayış kompleksindən üç-beş metr aralıda, qanunları və normativ aktları, eyni zamanda, tikinti, təhlükəsizlik və şəhərsalma qaydalarını kəskin şəkildə pozan, sənədi olmayan doqquzmərtəbəli binanın inşasından gedir. "Bu tikinti insanların yaşadığı mənzillərin eyvan və pəncərələrindən cəmi üç-beş metr aralıda, üzbəüzdə inşa edilir. Nazirlər Kabinetinin 11 mart 2014-cü il tarixli qərarının 9-cu bəndinə əsasən, binalar arasındakı məsafə bina hündürlüyünün 0,6 hissəsindən az olmamalıdır. Bizim yaşadığımız 19 mərtəbəli binanın hündürlüyü 70 metr təşkil edirsə, onun fasadına ən yaxın bina ən azı 42 metr aralıda tikilməlidir" deyən sakinlər qeyd ediblər ki, faktla bağlı binanın sakinləri və kompleksin nümayəndələri tərəfindən dəfələrlə Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinə, Nəsimi Rayon İcra Hakimiyyətinə və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə müraciət ediblər. Bakı Şəhər Memarlıq və Şəhərsalma İdarəsindən verilən cavabda bildirilib ki, qurum yuxarıda adı çəkilən qeyri-qanuni tikinti barəsində məlumatlıdır və "Dövlət Şəhərsalma Nəzarətinin Həyata Keçirilməsi Qaydaları"nın tələblərinə uyğun zəruri tədbirlərin görülməsi Nəsimi Rayon İcra Hakimiyyətinə və Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinə tapşırılıb. Lakin maraqlıdır ki, buna baxmayaraq, qanunsuz tikinti hələ də yerində toxunulmaz olaraq qalır, tikinti işləri isə istirahət və bazar günləri gecə saatlarında səs-küylü şəkildə yenə də aparılır.

Daha maraqlısı odur ki, Fövqəladə Hallar Nazirliyindən də sözügedən tikintinin davam etdirilməməsi barədə qərar verildiyi açıqlanıb. Ancaq bu da sabiq deputatın tikintini davam etdirməsinə mane olmayıb.

Qəribədir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi də tədbirsizlikdən şikayətçidir! Belə ki, komitədən qanunsuz tikinti barədə qurumlara məktub göndərildiyi deyilib və əlavə edilib: Bu günədək heç bir tədbir görülməyib".

Görünən odur ki sabiq deputat, biznesmen Ə.Qasımov nələrəsə, kimlərəsə (puluna, yaxud güclü himayədarına!) arxayın olaraq hətta dövlət qurumlarının tələblərini belə eşitməzdən və görməzdən gəlir.

Onu da qeyd edək ki, bu deputat olduğu zamanlardan bəri adı daim qalmaqallı xəbərlərdə keçən sabiq millət vəkilinin imza atdığı ilk səs-küylü tikinti deyil. Belə ki, daha əvvəl onun Nəsimi rayonu Mikayıl Rəfili küçəsi 17 ünvanda yerləşən binanın sakinlərinin evini sökdürdüyü məlumatı gəlmişdi. Həmin vaxt unikal.org-a müraciət edən və bəhs olunan ünvanda yaşayan sakinlər bildirmişdilər ki, evdə olmadıqları vaxtda deputata aid olan "Karat" MTK şirkətinin işçiləri onların mülkünü dağıdırlar. Məsələn, 60 yaşlı Quliyev Aydın İmran oğlu evdən çıxan kimi, evinin söküldüyünü görmüşdü: "Baxın, görün məni nə günə salıblar? Bu yaşımda başıma belə bir "oyun" açacaqlarını gözləmirdim. Evimi sökməklə məni öldürdülər".



Bildirildiyinə görə, Ə.Qasımov sakinlərin əlindən zorla aldığı, onların başına uçurduğu evlərin yerində bina inşa etdirmək niyyətindədir.

Bir sözlə, nəhəng biznes imperiyasına sahib olan sabiq deputat öz maraqları naminə vətəndaşları incitməkdə, onların haqlı tələblərini qulaqardına vurmaqda, bu da azmış kimi, hətta dövlət qurumlarının göstərişlərinə də saymazyanalıq göstərməkdədir. Cənab Qasımovun bu cəsarəti, cürəti hardan aldığını bilmirik, mümkündür ki, o, çoxlu puluna hədsiz arxayındır. Lakin əbəs yerə! Eks-deputat son illərdə ölkə qanunlarına və vətəndaş maraqlarına etinasızlıq göstərən, özünü dövlətin və xalqın önündə, hüququn üzərində görən, yalnız şəxsi mənfəətlərdən çıxış edən pullu, vəzifəli şəxslərin aqibətinə yaxşı fikir versə, kökündən yanıldığını, bəlkə də, başa düşər...

***Günel***

# Bakıda III Maliyyə və İnvestisiya Forumu keçiriləcək




***III Maliyyə və İnvestisiya Forumu (FIF2022) "Gələcək üçün yenilən" şüarı ilə 16 noyabr 2022-ci il tarixində "Baku Marriott Hotel Boulevard" hotelində keçiləcək.***

"Facemark" MMC-nin təşkilatçısı olduğu III Maliyyə və İnvestisiya Forumu ölkəmizin aparıcı şirkətlərinin dəstəyi və iştirakı ilə baş tutacaq. Forumun əsas məqsədi ölkəmizdə innovasiyayönümlü iqtisadiyyatın inkişafının genişləndirilməsi, bu sahənin hüquqi və infrastruktur bazasının beynəlxalq tələblərə uyğunlaşdırılması və maarifləndirmə prosesindən ibarətdir.

Ölkəmizin aparıcı şirkətlərinin dəstəyi və iştirakı ilə baş tutacaq forumun əsas məqsədi ölkəmizdə innovasiyayönümlü iqtisadiyyatın inkişafının genişləndirilməsi, bu sahənin hüquqi və infrastruktur bazasının beynəlxalq tələblərə uyğunlaşdırılması və maarifləndirmə prosesindən ibarətdir.

Bu il 3-cü dəfə keçiriləcək Maliyyə və İnvestisiya Forumu (FIF2022) dünyada və regionda yaranmış yeni iqtisadi, maliyyə, investisiya imkanları və rəqabətcil bazarı gözləyən yeni fürsətlərin müzakirə ediləcəyi bir platforma kimi çıxış edəcək. Maliyyə və investisiya sahəsində çalışan peşəkar və təcrübəli mütəxəssislər spiker qismində çıxış edərək gələcəyin iqtisadiyyatı üzrə mövzuların müzakirəsini aparacaqlar.

Gələcəyə hazırlıq bu gündən başlayır. Hər bir gələcək uğur isə dəyişikliklərdən və yenilənmədən keçir. İqtisadi inkişaf naminə yeni məqsəd və hədəflər müəyyən olunmalıdır. Azərbaycanda yaranan yeni iqtisadi-siyasi şərait regiona yeni maliyyə resurslarını - xarici bankları, investisiya şirkətlərini, yeni ticarət-nəqliyyat partnyorlarını regiona cəlb etmək və yeni infrastruktur yaratmaqla iqtisadi fürsətləri dəyərləndirməyə yol açır. Eyni zamanda dünyada baş verən proseslər zəminində dəyişən mövcud reallıqlar və yanaşmalar da yeni iqtisadi mərhələyə keçidin vacibliyini sübut edir.

# Bərdədə təcavüzə uğrayan qızın vəkili: "Qıza ölüm arzulayırlar"

***"Bərdə rayonunda cinsi zorakılığa məruz qalan 14 yaşlı qızın istintaq hərəkətləri davam etdirilir. İstintaqın gedişatı yeniyetmə qıza qarşı dörd nəfərin seksual xarakterli hərəkəti istiqamətində iş aparılır".***

Bu barədə məlumatı Bizim.Media-ya açıqlamasında cinsi zorakılığa məruz qalan qızın ailəsinin vəkili Ruhəngiz Quliyeva məlumat verib.

O bildirib ki, hazırda istintaq işləri davam etdirilir: "Hadisənin necə adlandırılması da hələ tam həllini tapmayıb. İstintaqın gedişində tövsif dəyişəcək, onu da deyə bilmirik. Hər halda proses zamanı bəlli olacaq. Amma məsələ ilə bağlı heç bir güzəştdən söhbət gedə bilməz".

Vəkil xatırladıb ki, yeniyetməyə qarşı seksual xarakterli zorakılıq hərəkətləri edənlərin barəsində Cinayət Məcəlləsinin 152.1-ci (16 yaşına çatmayan şəxslə cinsi əlaqədə olma) maddəsi ilə cinayət işi açılıb: "Dörd nəfərdən üçü saxlanılıb və barələrində üç aylıq həbs-qəti imkan tədbiri seçilib. Digəri azyaşlı olduğundan barəsində qanunla məsuliyyət nəzərdə tutulmur. İstənilən halda, ananın yeganə tələbi qızına qarşı seksual hərəkətlər edənlərə ən ağır və layiqli cəza verilməsidir. Tutaq ki, üç ilə qədər azadlıqdan məhrumetmə nəzərdə tutulubsa, istəyimiz ən yuxarı həddir".

Vəkil onu narahat edən digər bir nüansa da toxunub. O deyib ki, 14 yaşlı qız yaşadığı kənddə linç edilir: "Bu gün səhər başına bəla gələn qızın kiçik bacısı mənə zəng edərək ağlayıb. Kənddə qalmaq və orada məktəbə getmək istəmədiyini deyib. Təsəvvür edirsiniz bu, nə deməkdir? Kiçik qızın yalvarışları və məndən imdad istəməsi sadəcə ürək parçalayacaq bir məsələdir. İnanın ki, kənddəki qadınların fikirlərini də dəyişə bilmirəm.

Təcavüzə uğrayan qıza ölüm arzulayırlar. Nə deyə bilərəm? Onlar artıq o psixologiya ilə qocalıblar. Kənddəki o baxışlar 14 yaşlı qızın iki bacısına da yönələcək", - deyə vəkil qeyd edib.

Xatırladaq ki, xoşagəlməz olay avqustun 25-də Bərdə rayonunda yaşanıb. 14 yaşlı qıza dörd nəfər tərəfindən seksual hərəkətlər edilib və görüntüləri yayılıb. Videonu çəkib yayan dörd nəfər müəyyən edilərək saxlanılıb.

# Ötən ay aşkarlanan minaların sayı




***Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları zamanı ötən ay aşkarlanan minaların sayını açıqlayıb.***

ANAMA-dan "Unikal"a verilən məlumata görə, avqustun 1-dən 31-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Xocalı, Cəbrayıl və Zəngilanda aparılan minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 2 353, tank əleyhinə 689 mina və 1131 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Nəticədə 5 523.74 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

# Nazir rüşvət alan DYP rəisini işdən çıxardı



***Rüşvət almaqla bağlı səs yazısı yayılan Şabran Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin rəisi işdən çıxarılıb.***

"Unikal" Oxu.az-a istinadən xəbər verir ki, polis baş leytenantı Vasif Bəşirlinin pul tələb etdiyini əks etdirən səs yazısı ilə bağlı iddia barədə araşdırma aparılıb.

Aparılan araşdırmaların nəticəsindən sonra V.Bəşirli Ağsu Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsində baş inspektor vəzifəsinə təyin edilib.

Hazırda Şabran Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin rəisi vəzifəsinə təyinat yoxdur.

Qeyd edək ki, bir müddət əvvəl sosial şəbəkələrdə V.Bəşirlinin kimləsə əlbir olub, müxtəlif şəxslərdən rüşvət alaraq onları rayon ərazisində işə düzəldəcəyi barədə səs yazısı yayılıb.

Sözügedən səs yazısında onun əlbir olduğu adamdan 400-500 manat pul tələb etdiyi qeyd edilib.

# "Dünyada koronavirusa yoluxma halları azalıb" - ÜST

***Ötən həftə dünyada 4,5 milyon insan koronavirusa yoluxub. Son bir həftədə koronavirus infeksiyasından ölənlərin sayı 13 min nəfər təşkil edib. Ötən həftə ilə müqayisədə yoluxma halları 16 faiz, ölüm halları isə 13 faiz azalıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST)məlumat yayıb. Qeyd edilir ki, xüsusilə də Şərqi Aralıq dənizi regionunda və Avropada koronavirusa yoluxma hallarında azalma qeydə alınıb.

Afrikada da ölüm nisbəti əhəmiyyətli dərəcədə azalıb. Bununla belə, Cənub-Şərqi Asiya və Sakit Okeanın qərbindəki ölkələrdə ölüm halları artıb. Avqustun 30-na olan məlumata görə, dünyada 599 milyondan çox insan koronavirusa yoluxub, ölənlərin ümumi sayı isə 6,4 milyon nəfərdən çoxdur.

# Kredit almaq üçün bal aşağı salındı - Tələbələrə şad xəbər

***Təhsil Tələbə Krediti Fondu standart tələbə krediti üçün tələb olunan balı aşağı salıb.***

"Unikal" xəbər verir ki, bu barədə Təhsil Tələbə Krediti Fondundan məlumat verilib. Bildirilib ki, Təhsil Tələbə Krediti Fondunun Himayəçilər Şurasının 31 avqust tarixində keçirilən iclasında qəbul olunmuş qərara əsasən, 1-ci kurs tələbələrin ilk semestrdə standart təhsil tələbə krediti almaq hüququnu müəyyən edən ümumi balın aşağı həddi 250 olaraq müəyyən edilib.

Qəbul balı yalnız I kursun birinci semestri üçün keçərlidir. Növbəti semestrdən tələbənin qəbul balı deyil, tələbənin ümumi orta müvəffəqiyyət göstərici balı nəzərə alınacaq. Sosial təhsil tələbə krediti almaq üçün isə heç bir bal limiti yoxdur.

Qeyd edək ki, bu vaxta qədər tələbə qəbulu imtahanında toplanan ümumi balın aşağı həddi 300 bal idi.

# Nəqliyyat şirkətlərinin bahalaşma oyunu...

## Həftənin sualı: Avtobuslarda qiymət artımı sərnişindaşımanın keyfiyyətini artırırsa, 2018-ci ildəki qiymət artımından sonra niyə bunun şahidi olmadıq?

***Bir müddət öncə 19 sərnişindaşıma şirkəti adından Tarif Şurasına, İqtisadiyyat Nazirliyinə və Bakı Şəhər İcra Hakimiyyətinə avtobuslarda gediş haqqının artırılması ilə bağlı ünvanlanan müraciət yenidən aktuallaşıb.***

Xatırladaq ki, həmin müraciətdə ictimai nəqliyyatda mövcud olan vahid tarif siyasəti ilə ölkədə və dünyadakı bazar reallıqları arasında kəskin fərqlər yarandığı bildirilmişdi: "gHal-hazırda sərnişindaşımada mövcud olan gediş haqqı (30 qəpik) nəinki investisiya layihələri, hətta əməliyyat xərclərinin qarşılanması üçün yetərli deyil. Mövcud tarif daşıyıcı şirkətləri ciddi maliyyə itkiləri ilə üz-üzə qoyub, borclanmanı daha da artırıb".

Müraciətdə o da qeyd olunurdu ki, yaranmış şəraitlə əlaqədar şirkətlərin parklarında 700-dən artıq avtobus sərnişinlərə xidmət göstərə bilmir.




Dövlət Gömrük Komitəsinin hesabatına əsasən, bu ilin beş ayında ölkəyə ümumi dəyəri 43 milyon 849 min dollar olan 292 avtobus gətirilib. Bir avtobusun orta qiyməti 150 min dollar ətrafında dəyişib. 2021-ci ilin ilk beş ayında isə ölkəyə ümumi dəyəri 4 milyon 625 min dollar dəyərində cəmi 51 avtobus gətirilmişdi. Bir avtobusun orta qiyməti 90.7 min dollar təşkil edib. Beləliklə, bir avtobusun qiyməti 59.3 min dollar artıb.

Məhz bu da avtobuslarda gediş haqqının artırılması üçün əsas səbəblərdən biri kimi göstərilir.

Düzdür, yola salmaq üzrə olduğumuz həftə Bakı Nəqliyyat Agentliyindən "Turan" agentliyinə bildirilib ki, qurum gediş haqqının artırılması ilə bağlı Tarif Şurasına müraciət etməyib. Hazırda bu məsələnin Tarif Şurasının gündəmində olub-olmadığını isə qurumdan, hələlik, öyrənmək mümkün olmayıb.

Sərnişindaşıma şirkətləri isə öz iddialarında qalırlar. Onlar bildirirlər ki, 30 qəpik gediş haqqı ilə müasir standartlara uyğun şəkildə sərnişindaşıma xidməti göstərmək çox çətindir. Bundan başqa, onlar ictimai nəqliyyata hər hansı dəstəyin olmadığından, daşıyıcı şirkətlərin dövlət qurumlarına kollektiv müraciətlərinin cavabsız qalmasından da şikayətçidirlər.

Lakin müstəqil ekspert rəyləri nəqliyyat şirkətlərinin gediş haqlarının bahalaşdırılması yönündəki tələblərini əsaslı saymırlar. Onların fikrincə, ölkəmizdə ictimai nəqliyyatın keyfiyyəti ilə qiyməti tərs mütənasibdir. 2018-ci ildə ictimai nəqliyyatın qiyməti 50% qaldırılsa da, keyfiyyət nəinki artmayıb, əksinə, azalıb. "Hazırda Azərbaycanda ictimai nəqliyyatın qiyməti heç də ucuz deyil. Bu bir sıra ölkələrlə, o cümlədən Avropa ilə müqayisədə demək olar ki, eyni səviyyədədir. Üstəlik həmin ölkələrdə həm əhalinin orta aylıq əmək haqqı, həm də ictimai nəqliyyatın keyfiyyəti bizdəkindən qat-qat çoxdur. 2018-ci ildə ictimai nəqliyyatda gediş haqqı qaldırıldıqda şirkətlər keyfiyyətin də artacağı vədini vermişdilər. Lakin vəziyyət göz qabağındadır" - bunu bir müddət öncə nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov bildirmişdi.

Araşdırmalar qiymət artımının zəruriliyinə əsas kimi göstərilən səbəblərdən bəzilərinin reallıqla üst-üstə düşmədiyini də göstərir. Məsələn, sərnişindaşıma şirkətləri ehtiyat hissələrinin son zamanlar bir neçə dəfə bahalaşdığını irəli sürürlər. Düzdür, həmin məhsulların qiymətində artım var, lakin əksər ehtiyat hissələrinin dəyəri ya sabitdir, ya çox cüzi dəyişib. Nəzərə alsaq ki, bahalaşan ehtiyat hissələrini hər ay almaq tələb olunmur, onda əhalinin onsuz da ciddi sosial-iqtisadi çətinliklər yaşadığı bir vaxtda gedişhaqqını artırmaq tələbi ilə çıxış eləmək hər hansı məntiqə sığmır.

"Unikal"ın əldə etdiyi məlumatda o da qeyd olunur ki, nəqliyyat şirkətləri şəhərdaxili avtobuslarda gedişhaqqını 30 qəpikdən 40 və 50 qəpiyə, şəhərətrafı qəsəbələrə isə 40, 50 qəpikdən 60-70 qəpiyə qədər artmasını istəyirlər. Bu istək reallaşarsa, sadə vətəndaşların cibinə ciddi zərbə dəyməsi ilə yanaşı, xüsusilə Bakıda indinin özündə belə xaotik olan nəqliyyat sistemi daha da ağırlaşa bilər. Belə ki, əksəriyyət ictimai nəqliyyatdansa şəxsi avtomobil vasitələrindən istifadəyə üstünlük verməyə başlayacaq. Yenə ekspertlərin dediyi kimi: "Hərə ucuz bir avtomobil alıb onunla gedib-gəlməyə başlayacaq, Bakı küçələrində qarajlardakı sınıq-sökük avtomobilləri görəcəyik, bununla da paytaxtın tıxac problemi bir az da mürəkkəb xarakter alacaq".

Bir sözlə, ictimai nəqliyyatda gedişhaqqının qaldırılması tələbinin haqlı tərəfləri olsa belə, burada öncə xalqın durumunu nəzərə almaq, bahalaşmaq qərarı verilərkən onun yaradacağı sosial fəsadları nəzərə almaq, digər tərəfdən isə var olan problemləri ən asan yolla -bahalaşma hesabına çözmək ənənəsindən əl çəkmək, ümumi maraqlara uyğun çıxış yolları üzərində baş sındırmaq lazımdır...

***Toğrul Əliyev***

## 6.3.16. elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Müəllimlərin sertifikasiyası təhsilimiz üçün nə vəd edir?

### İlqar Orucov: "Nazirliyin sertifikasiya ilə bağlı atdığı addım təhsilin keyfiyyətinin yüksəlməsinə yönələn bir tədbirdir"

***Azərbaycanda təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün mütəmadi olaraq yeni layihələr icra olunur. Müəllimlərin İşə Qəbul (MİQ) imtahanından sonra məktəblərə daha bilikli müəllimlərin cəlb olunması artıq öz bəhrəsini verməkdədir. İki gün öncə isə ölkəmizdə ibtidai sinif müəllimlərinin sertifikasiyası həyata keçirildi. İlkin mərhələdə Elm və Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Abşeron-Xızı, Gəncə-Daşkəsən, Quba-Xaçmaz regional təhsil idarələrinin tabeliyində olan ümumi təhsil müəssisələrində çalışan 11 mindən çox ibtidai sinif müəllimi test imtahanlarında iştirak etdi. İmtahanlar Bakı, Sumqayıt, Gəncə şəhərləri və Xaçmaz rayonu olmaqla, ümumilikdə 8 imtahan mərkəzində təşkil olundu.***



Müəllimlərin sertifikasiyasının nəticələrinə görə, maksimum (60 bal) toplayanlar da az olmadı. Müəllimlərin sertifikasiyası sonda onların əmək haqqının artmasına gətirib çıxartmaqla yanaşı, təhsilin keyfiyyətinə də müsbət təsir göstərəcək.

Təhsil üzrə ekspert İlqar Orucov "Unikal" qəzetinə müsahibəsində bildirib ki, təhsilverənlərin sertifikasiyası günün tələbidir. Onun sözlərinə görə, bu Azərbaycanda ilk təcrübə olsa da dünyada bu cür təcrübələrdən istifadə edilir. Hətta bəzi ölkələrdə məktəblər sertifikasiyanı özləri keçirirlər. Ekspert bildirib ki, məktəb rəhbərliyinin marağı olmalıdır ki, orada çalışanlar, pedaqoji heyət sertifikasiyadan keçirilsin: "Onlar peşəkar tələblərə cavab verməli, öz üzərlərində daim işləməlidirlər. Ona görə də nə qədər təhsilverənlər peşəkar olarsa, həmin məktəblərə tələbat da bir o qədər çox olur".

İ. Orucovun sözlərinə görə, təhsilverənlərin sertifikasiyasının həyata keçirilməsi müəllimlərə müəyyən imkanlar yaradacaq. Həmsöhbətimiz deyir ki, bəzi insanların sertifikasiyanı MİQ imtahanı ilə eyniləşdirməsi düzgün deyil: "Çünki, qaydalarda da nəzərdə tutulub ki, MİQ imtahanından keçərək işə ilk dəfə qəbul olunanlara 5 il müddətində sertifikasiya şamil olunmur. MİQ imtahanlarında sertifikasiyadan daha ciddi tələblər olduğundan onların təkrar sertifikasiyasına ehtiyac qalmır".

İ. Orucov deyir ki, zaman-zaman sertifikasiya ilə bağlı qaydalar təkmilləşdirilməlidir. Çünki dövr dəyişib. Təhsilverənlər də dövrün tələblərinə cavab verməlidir. Onun sözlərinə görə, yüksək nəticə göstərən müəllim, sertifikasiyadan keçməyən və aşağı nəticə göstərən müəllimlə eyni əmək haqqı almamalıdır. Sertifikasiya həm də bu məqsədə xidmət edir. Həmsöhbətimiz deyir ki, biz təhsil məsələsində ən yaxşı kadrları cəlb etməyi bacarmalıyıq. Ekspert qeyd edir ki, nazirliyin sertifikasiya ilə bağlı atdığı addım təhsilin keyfiyyətinin yüksəlməsinə yönələn bir addımdır.

Məlumat üçün bildirək ki, ölkə başçısı İlham Əliyev dövlət ümumi təhsil müəssisələrinin rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavələr müəyyən edilməsi haqqında fərman imzalayıb. Prezident Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) səriştə və nəticə əsaslı diferensiallaşdırılmış və əmək bazarında rəqabətqabiliyyətli əməkhaqqı sisteminin yaradılması məqsədilə qərar verib.

Xatırladaq ki, Elm və Təhsil Naziri Emin Əmrullayev bildirib ki, sertifikasiyadan sonra , 6 saata qədər çalışan müəllimin orta maaşı 150 manat, 10 faiz əlavə olduqda 165, 35 faiz əlavə olduqda isə 203 manat təşkil edəcək. Eyni zamanda 6 saatdan 12 saata qədər dərs yükü olan müəllimlərin orta maaşı 310, 10 faiz əlavə ilə 340, 35 faiz əlavə ilə isə 420 manat olacaq: "12-18 saat aralığında dərs yükü olan müəllimlərə gəlincə, onların orta maaşı 535 manatdır. 10 faiz əlavə ilə 590, 35 faiz əlavə tətbiq edildikdə isə 720 manat təşkil edəcək. 18-24 saat aralığında dərs yükü olanların orta əməkhaqqı 755 manatdır. 10 faiz əlavə tətbiq edildikdə 830, 35 faiz əlavə olduqda isə 1020 manat alacaqlar. Eyni zamanda 24 saatdan artıq dərs yükü olanların əməkhaqqı 1100 manatdır. 10 faiz əlavə olduqda 1210, 35 faiz əlavə tətbiq edildikdə isə 1485 manat əməkhaqqı alacaqlar".

Qeyd edək ki, sertifikatlaşdırma iki mərhələdən (test və müsahibə mərhələsi) ibarət olmaqla keçirilir. İlk dəfə işə qəbul olunanlar (5 il müddətində), hamilə qadınlar, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər) bu prosesdə iştirak etmirlər. Sözügedən prosesin təşkili məqsədilə Elm və Təhsil Nazirliyi tərəfindən Təhsilverənlərin Sertifikatlaşdırılması Şurası yaradılıb, Şuranın əsasnaməsi və tərkibi təsdiq olunub.

Test imtahanı mərhələsində 60 sual namizədlərə təqdim olunur. Hər bir düz cavab bir bal kimi müəyyən edilir. Cavablandırılmayan suallar sıfır bal kimi qeyd olunur. İmtahanda 30 və daha artıq bal toplayanlar müsahibə mərhələsinə buraxılır. Həmin mərhələdə 20 bal toplayan namizədlər sertifikatlaşdırılır.

Sertifikatlaşdırmanın nəticələri təhsilverənlərin karyera inkişafında və əməyinin stimullaşdırılmasında nəzərə alınacaq. Üzrlü səbəblərdən sertifikatlaşdırmada iştirak etməyən və ya sertifikasiya üçün tələb olunan minimum balı toplamayan şəxslər 1 il müddətində iş yeri saxlanılmaqla, təkrar sertifikatlaşdırmada iştirak etmək hüququna malik olacaqlar.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



## Füzuli-Hadrut avtomobil yolunun tikintisi son mərhələdə

***Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və son mərhələ üzrə davam etdirilir.***

Avtomobil yolunun uzunluğu 12 kilometrdir. I texniki dərəcəli olacaq bu yol başlanğıcını "Zəfər Yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir.

Füzuli-Hadrut avtomobil yolu 4 hərəkət zolaqlıdır. Hərəkət zolaqlarına uyğun olaraq yol yatağının eni müvafiq olaraq 21.5 metr, yolun hərəkət hissəsinin eni isə 14 metr təşkil edir.

Xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndiriləcək profilə salınması və I texniki dərəcəyə uyğun yeni torpaq yatağının və yol əsasının inşası 8.5 km-lik hissədə yekunlaşıb. Həmin hissəyə asfalt örtüyünün alt layının döşənməsi işləri də icra olunub.

Füzuli-Hadrut avtomobil yolunda torpaq yatağının və yol əsasının inşası ilə yanaşı yolboyu atmosfer sularının ötürülməsini təmin etmək məqsədi ilə müxtəlif diametlərə malik suötürücü boruların, həmçinin dərə sularının ötürülməsi üçün 1 dördbucaqlı su keçidinin tikintisi də yekunlaşmaq üzrədir.

Yolun 6,7 kilometrində, "Qarğabazarı" adlanan ərazidən keçən hissəsində tikintisi aparılan iki aşırımlı avtomobil körpüsündə hazırda gövdə dayaqlarının inşası icra olunur.

Tikinti işlərini "İnşaat Norma və Qaydaları"nın tələblərinə uyğun şəkildə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi həyata keçirir. Tikintinin tərtib olunmuş qrafikə uyğun cari ilin sonunadək yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.

Füzuli-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarının ərazisindən keçir.



## Azərbaycanda bu qadağa ləğv olunur

***Balıqların kürüləmə dövrü ilə əlaqədar 1 may 2022-ci il tarixindən balıq ovuna tətbiq edilən moratoriumun müddəti sentyabr ayının 1-də bitir.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Ekoloji Təhlükəsizlik Xidməti və Su Nəqliyyatında Polis İdarəsi birgə məlumat yayıb.

Dövlət Ekoloji Təhlükəsizlik Xidməti Su Nəqliyyatında Polis İdarəsi ilə birgə sənaye balıq ovu ilə məşğul olmaq istəyən vətəndaşların nəzərinə çatdırır ki, balıq ovlayarkən yalnız qanunvericiliklə qadağan olunmayan ov alətlərindən istifadə edilməlidir.

Ov zamanı zəhərli, kimyəvi və partlayıcı maddələrdən, eyni zamanda qanunla ölkədə dövriyyəsi qadağan olunmuş sintetik tor, elektrik cərəyanı, itiuclu qarmaq və digər alətlərdən istifadə edən şəxslər Su Nəqliyyatında Polis İdarəsi tərəfindən cinayət məsuliyyətinə cəlb ediləcəklər.

Sənaye balıq ovu ilə məşğul olmaq istəyən şəxslər 5 saylı "ASAN xidmət" mərkəzində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin pəncərəsinə müraciət edərək müvafiq icazə sənədini əldə etməlidirlər. Üzən vasitələr müvafiq qaydada qeydiyyatdan keçirilməli, ovlanmış balıq və digər su bioresursları barədə məlumatları əks etdirən vətəgə jurnalında gündəlik balıq ovu barədə qeydiyyat aparılmalıdır.

Balıq və digər su bioresurslarının ov qaydalarının pozulmasına, o cümlədən qanunsuz tutulmasına görə təqsirkar şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

## Ağalıya daha 25 ailə köçürüləcək

***"Yaxın bir həftə ərzində Zəngilan rayonunun Ağalı kəndinə 25 ailə köçürüləcək".***

Bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Real TV-yə müsahibəsində deyib.

Onun sözlərinə görə, Ağalıda 200 evdən ibarət kənd salınıb: "41 ailə artıq orada öz həyatını davam etdirir. Yaxın bir həftə ərzində 25 ailəni "Ağıllı kənd"ə köçürməyi nəzərdə tuturuq. Bundan sonra da Dövlət Komitəsinin qarşısında qoyulan bütün tapşırıqları yerinə yetirməyə hazırıq. Ümumilikdə 200 ailənin ora köçürülməsini mərhələ-mərhələ həyata keçirəcəyik".

## Siyəzəndə zəlzələ oldu

***Siyəzən rayonunda zəlzələ olub.***

Bu barədə "Unikal"a Zəlzələlərin tədqiqatı bürosundan məlumat verilib.

Qeyd olunub ki, təkanlar yerli vaxtla saat 08:02-də Siyəzən stansiyasından 21 km şərqdə Siyəzən rayonunda qeydə alınıb.

Maqnitudası 3, dərinliyi 8 km olan zəlzələ hiss olunmayıb.

# Müəllimlərin sertifikasiya imtahanı yekunlaşır

***Müəllimlərin sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsi bu gün yekunlaşır.***

"Unikal" xəbər verir ki, sertifikatlaşdırmanın keçirilməsində məqsəd ümumi təhsil müəssisələrində pedaqoji və idarəetmə fəaliyyəti ilə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlərin peşəkarlıq səviyyələrini və peşə yararlılıqlarını yoxlamaq, onların peşəkar inkişafına nail olmaq və təlim ehtiyaclarını öyrənməkdir.

Sertifikatlaşdırma prosesinə birinci mərhələdə ibtidai təhsil səviyyəsi üzrə Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Abşeron-Xızı, Quba-Xaçmaz və Gəncə-Daşkəsən Regional Təhsil idarələrinə tabe olan, həmçinin Elm və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan 11 min ibtidai sinif müəllimi cəlb olunub. Təhsilverənlərin sertifikatlaşdırılmasının test mərhələsində onlara tədris etdikləri fənn üzrə ümumtəhsil proqramları-



na, tədris metodikasına və təlim strategiyalarına aid 60 sual təqdim edilir. Hər suala düzgün cavab 1 balla qiymətləndirilir. Səhv cavablar və ya sualın cavabsız qoyulması 0 bala bərabər tutulur və düzgün cavablara təsir göstərmir.

Sertifikasiya ilə bağlı həvəsləndirmə tədbiri olaraq keçid balı toplamış müəllimlərin əməkhaqqına 10 faiz, 50-dən yuxarı bal toplayan müəllimlərin əməkhaqqına isə 35 faiz əlavə ödəniləcək. Üzrlü səbəblərdən sertifikatlaşdırmada iştirak etməyən və ya sertifikasiya üçün tələb olunan minimum balı toplamayan şəxslər 1 il müddətində iş yeri saxlanılmaqla, təkrar sertifikatlaşdırmada iştirak etmək hüququna malik olacaqlar.

İki mərhələdən (test və müsahibə mərhələsi) ibarət olan sertifikatlaşdırmada ilk dəfə işə qəbul olunanlar (5 il müddətində), hamilə qadınlar, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər) iştirak etməyəcəklər.

Xatırladaq ki, test imtahanı mərhələsinə avqustun 30-dan başlanılıb.

# Siyəzəndə suvarma mövsümü

***Siyəzən rayonunda suvarma mövsümü uğurla davam etdirilir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, torpaq mülkiyyətçilərini vaxtında suvarma suyu ilə təmin etmək məqsədi ilə Siyəzən Suvarma Sistemləri İdarəsinin əməkdaşları tərəfindən torpaq kanallar lil və kol-kosdan təmizlənir.***

Nəticədə kanalların ötürücülük qabiliyyəti artır və fermerlər lazimi vaxtda su ilə təmin edilir. Suvarma mövsümü dövründə hər hansı çətinliyin yaranmaması üçün mütamadi olaraq idarə əməkdaşları tərəfindən hidrotexniki qurğularda və qapalı kanallarda cari təmir işləri görülür.

Onuda qeyd edək ki, Siyəzən rayonunda 247 km uzunluğunda suvarma kanalları mövcuddur. Hər il plan-qrafikə uyğun olaraq torpaq məcralı kanallar beton üzlüyə alınır. Ötən il 2100 metr uzunluğunda Zarat kanalının beton üzlüyə alınması nəticəsində 100 hektardan artıq sahənin suvarma suyu ilə təminatı yaxşılaşıb. Bu isə öz növbəsində rayonda kənd təsərrüfatı məhsullarının istehsalının artmasına böyük təsir göstərib.

Qeyd edək ki, Siyəzən rayonunda 12000 hektardan çox suvarılan ərazi mövcuddur. Rayonun əsas suvarma mənbəyi Samur-Abşeron kanalı, Taxtakörpü-Ceyranbatan kanalı, Gil-gilçay və Ataçay çaylarıdır. Sahələri suvarma suyu ilə vaxtında və itkisiz təmin etmək məqsədilə son dövrlər rayonda 1685 ədəd hidrotexniki qurğu, 198286 metr uzunluğunda qapalı supaylayıcı şəbəkə, üzərində 118 ədəd hidrotexniki qurğu olan 24103 m



uzunluğunda beton üzlüklü açıq suvarma kanalı və 2300 hektar ərazini əhatə edən 26 kilometr açıq, 121 kilometr isə qapalı drenaj şəbəkəsi çəkilib.

***Hüseyn***

# Ağdamın Qarağacı qəbiristanlığı ilə bağlı alternativ hesabat hazırlanacaq

***Bu gündən Müstəqil Jurnalistlərə Texniki və Hüquqi Yardım İctimai Birliyi yeni layihəyə başlayr.***

"Unikal" xəbər verir ki, bu barədə layihənin rəhbəri Asəf Quliyev məlumat verib.

O qeyd edib ki, işğal altında olan zaman Ağdamda ağdamlılar və bütünlükdə Azərbaycan üçün bir çox mənəvi əhəmiyyət daşıyan məkanlar yerlə yeksan edilib. Layihənin əsas vəzifəsi belə məkanlardan biri olan Qarağacı qəbiristanlığı ilə bağlı alternativ hesabat hazırlamaqdır: "Məqsəd bu hesabatı Azərbaycanda fəaliyyət göstərən diplomatik missiyalara, beynəlxalq təşkilatlara çatdırmaqla işğal dövründə baş vermiş vandalizm aktla-



rının təkcə maddi yox, daha çox mənəvi zərərini beynəlxalq ictimaiyyətə çatdırmaqdır".

Layihə rəhbəri bildirib ki, Ağdamın yenidən qurulması planında Qarağacı qəbiristanlığının da bərpa olunacağı nəzərdə tutulub: "Bizim layihənin məqsədlərində biri də insanların yaddaşında qalan bəzi nüansları tapıb ortaya çıxarmaqdan ibarətdir. Əminik ki, bərpa işləri görülən zaman insanların yaddaşında qalan bu detallar faydalı olacaq".

A.Quliyev Ağdamın Qarağacı qəbiristanlığı ilə bağlı hər hansı bir tarixi video, foto materialları olan şəxslərdən bu materialları layihənin icraçılarına təqdim etməyi xahiş edib.

Qeyd edək ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəklədiyi "Ruhlar şəhərini ruhu" layihəsi sentyabrın 1-dən noyabrın 30-dək həyata keçiriləcək.

# Qərbi azərbaycanlılar siyahıya alınacaq - Arxiv yaradılır

***Azərbaycanda yeni yaradılan "Qərbi Azərbaycan İcması" aktiv fəaliyyətə başlayıb. Belə ki, 2022-ci il avqustun 3-də "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin Ümumi Yığıncağında təşkilatın "Qərbi Azərbaycan İcması" adı ilə qeyri-kommersiya təşkilatına çevrilməsi (yenidən təşkili) təsdiq olunub. Yeni inzibati bina ilə təmin olunan İcmanın heyəti tam formalaşdırılaraq, yeni hədəfləri müəyyən edilib.***

Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, rəhbəri olduğu İcmanın məqsədi müxtəlif vaxtlarda etnik mənsubiyyətinə görə Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmaqla hüquqlarının beynəlxalq müstəvidə bərpası, Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliğ olunması və tam məhv olunmasının qarşısının alınması, həmçinin insanların öz ata-baba yurdlarına qayıtmaq hüququnun təmin edilməsi və birgəyaşayışa nail olunmasından ibarətdir.

İcmanın Müşahidə Şurasının rəhbəri, professor Misir Mərdanov təşkilatın hədəfləri haqqında Modern.az-a danışıb. Misir Mərdanov xatırladıb ki, əvvəlki "Azərbaycan Qaçqınlar Cəmiyyəti" Qərbi Azərbaycandan qovulan şəxsləri birləşdirən təşkilat idi:

"İndi isə müasir tələblərə uyğun bir quruma çevrildi. Bura daha təcrübəli, səriştəli insanlar cəlb edilib. İş şəraiti də yaxşılaşdırılıb, yeni bina verilib, icmanın fəaliyyəti üçün şərait tamamilə dəyişib. Əvvəllər cəmiyyətin, ölkə rəhbərliyinin əsas diqqəti Qarabağ məsələsinə yönəlmişdi. İşğal altındakı torpaqlarımız düşmən tapdağından azad edildi, münaqişəni biz həll etdik. İndi isə diqqətimiz tarixi torpaqlarımızda, Qərbi Azərbaycanda olduğundan cəmiyyətin qarşısında ciddi məsələlər dayanır. Mənə belə gəlir ki, bu cür yeniləşmə zamanın tələbi idi.

Hazırda icmanın Müşahidə Şurasının sədriyəm. İcma tam strukturda fəaliyyətini gücləndirib. İdarə Heyəti, Ağsaqqallar Şurası, Məsləhət Şurası, Qadınlar Şurası, Beynəlxalq Əlaqələr Şurası və s. strukturlar üzərinə düşən vəzifələr müəyyən edilib. Daha ciddi və sistemli şəkildə işimizi qurmuşuq.

İcmanın fəaliyyət göstərdiyi binada müasir tələblərə uyğun arxiv, kitabxana, muzey yaradılacaq. Biz vaxtilə Qərbi Azərbaycan torpaqlarından qovulan sakinlərin, şahidlərin dediklərini qeydə almamışıq, sənədləşdirməmişik. İndi də gec deyil. Elə azərbaycanlılar var ki, həyatdadırlar, hadisələri öz gözləri ilə görüblər. Ona görə, həmin şahidlərin dedikləri səsyazısı, video şəklində icmanın arxivində saxlanılacaq. Binada sərgilər keçirmək, kitablar təqdim etmək niyyətindəyik. Qərbi azərbaycanlıların böyük əksəriyyəti xarici ölkələrdə yaşayırlar. Onlarla əlaqə qurmaq üçün Beynəlxalq Əlaqələr Şurası fəaliyyət göstərəcək. Yaxın vaxtlarda icmanın elektron saytı da fəaliyyətə başlayacaq. Bütün məlumatlar burada onlayn əks olunacaq. Görülməli işlər çoxdur".

Misir Mərdanov xüsusilə qeyd edib ki, Qərbi azərbaycanlılar müharibə istəmir, heç kimin torpaqlarına göz dikməyib:

"Amma hədəfimiz, gələcək məqsədimiz budur ki, öz dədə-baba torpaqlarımıza gedə biləк. Doğmalarımızın məzarlarını, abidələrimizi ziyarət edək, tariximizin hazırda nə durumda olduğunu gözlərimizlə görək. Yaxın gələcəkdə olmasa da nə zamansa, o torpaqlara qayıdacağıq. İrəvan da, Zəngəzur da, Qaraqoyunlu da bizimdir".

Qərbi azərbaycanlıların siyahıya alınmasına gəlincə, sabiq təhsil naziri vurğulayıb ki, indiyə qədər fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti"nin arxivlərində, bazasında dəqiq olaraq hansı rayonlardan, hansı kəndlərdən kimlər köçürülübsə, siyahısı var. Amma bu siyahıya yenidən baxmaq lazımdır:

"34 il vaxt keçib və ötən illər ərzində Qərbi azərbaycanlıların sayı artıb. Gənc nəsil ata-baba yurdu haqqında dəqiq məlumata malik olmalıdır. Ermənilərin bizim orada yaşayan insanların başına açdığı oyunlar, onları yandırması, öldürməsi haqqında olan məlumatlar genişləndirilməli, dəqiqləşdirilməlidir.



Mən 10 il yaxındır, bir kitab üzərində işləyirdim. Onu tamamlayıb, çapa vermişəm, sentyabrın axırına hazır olacaq. Kitabda yaşadığımız Qaraqoyunlu dərəsi, kəndləri, orada yaşayan insanlar, məktəblər, müəllimlər və s. haqqında dəqiq məlumatlar qeyd edilib. Mənə elə gəlir, hər kəs öz yaşadığı regionla, Qərbi Azərbaycanın bir bölgəsi ilə bağlı ətraflı yazıları, məlumatları təqdim etməlidir.

Çox kitablar yazılıb, amma geniş yayılmayıb, təqdim edilməyib. Biz hesab edirik ki, mövcud faktları cəmiyyətə tanıtmalı, təqdim etməliyik. İnsanlar o torpaqlar, tarixi, mədəniyyəti, abidələri haqqında geniş, dolğun məlumat ala bilməlidirlər. Daimi fəaliyyət göstərəcək muzeyimizdə həm azərbaycanlılara, həm də xaricdən gələn qonaqlarımıza bütün faktlar göstəriləcək. Nəzərdə tutulan işlər çoxdur, yeni mövsümdən icmada bizi gərgin fəaliyyət gözləyir".

# Onun ürəyi Vətənlə döyünürdü



***Əzəli, əbədi yurd yerimiz olan İkinci Qarabağ müharibəsi başlanan gündə "Təki Vətən yaşasın"- deyib odun-alovun içinə atılan minlərlə qəhrəman oğullardan biri Sadiq Tahir oğlu Feyziyev olur. Vətənini canından əziz tutması onun iç dünyasından, mənəvi aləmindən qaynaqlanırdı. Ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən 44 günlük haqq savaşımızda tarix yazıb şəhidlik zirvəsinə ucalmağı həm də doğulub boya-başa çatdığı Yardımlı rayonunun Zevin kəndini Azərbaycana igidlər diyarı kimi tanıtdı. 27 il oldu bu dağlar qartalının ömür yolu. Bu yol qısa olsa da, elinə şərəf gətirdi, Vətənə, torpağa sonsuz məhəbbət mücəssəməsinə döndü.***

Hələ uşaqlıqdan ürəyində mənfur düşmənlərə qarşı kin, nifrət bəsləyən Sadiq orta məktəbdən sonra Hərbi Tibb Universitetində oxuyub dərin savad alır. 2013-cü ildə Vətənə cəsur oğullar gərək olduğu zaman o, cəbhə bölgəsində əyninə hərbi paltar geyinir. Özündə Vətəninə, dövlətinə, xalqına məhəbbət hissini yaşatmaqla həkim kimi əsgəri borcunu şərəflə yerinə yetirir. Nümunəvi xidməti ona əsgərlərin, zabitlərin hörmətini qazandırır. 2016-ci ilin aprelin 26-da Sadiq də Vətən naminə qanlı döyüşlərə atılır. Düşmənin çox sayda canlı qüvvəsini məhv edir, neçə-neçə yaralı qəhrəman döyüşçüyə tibb yardım göstərməklə ikinci həyat verir.

Vətən müharibəsi başlananda da Sadiq silaha sarılıb düşmənin qarşısına birinci çıxanlardan olur. İlk gündən şəxsi şücaəti igidləri ruhlandırır, qələbə üçün böyük təminatlar verir. Ağır müharibə meydanlarında öndə getməklə, yaralı döyüşçülər onun şəfalı əlləri ilə ikinci dəfə düşmənə qan qusdurur. Talış kəndi və Suqovuşan qəsəbəsinin azadlığı uğrunda hünər göstərir. Suqovuşandan sonra Ağdərə istiqamətində gedən qeyri-bərabər döyüşdə snayper Sadiqi vurub və yaralanır. Ondan sonra qərargah rəisi də yağı gülləsinə tuş gəlir. Sadiq özü yaralı olduğu halda qərargah rəisinə tibbi yardım göstərir. Bu zaman onların olduğu yer raket zərbəsi ilə vurulub, qəlpədən həm Sadiq, həm də qərargah rəisi bir yerdə şəhid olublar.

Vətəni canından əziz tutan iki qəhrəman əbədiyyət qazanır. Sadiq Feziyev ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medallara layiq görülür.

***Zəfər Orucoğlu, AJB üzvü***

# MEDİA-dan jurnalistlər üçün maarifləndirici rubrika

***Medianın İnkişafı Agentliyi tərəfindən "3 sual, 3 cavab" rubrikası çərçivəsində jurnalistlərin maarifləndirilməsi ilə bağlı yeni layihəyə başlanılıb.***

"Unikal" xəbər verir ki, budəfəki buraxılışda "onlayn media subyektinin özünün veb-saytında hansı məlumatlar göstərilməlidir?, "onlayn media subyektinin özü tərəfindən istehsal olunan kütləvi informasiyanın sayına dair minimal tələb mövcuddurmu, mediada yayılmış həqiqətə uyğun olmayan məlumata görə redaksiya və ya jurnalist hansı hallarda məsuliyyət daşımır?" kimi suallar cavablandırılıb.



# Lavrov rus diplomatların təhqir edilməsindən şikayətləndi

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov Qərbdə rus diplomatlarının təcrid olunmasından və təhqir edilməsindən şikayətlənib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV-ləri məlumat yayıb.

"Qərbin özünün bütün alətləri və mexanizmləri bir anda bloklaması faktı ilə yanaşı, diplomatlarımıza hər hansı təmaslar sadəcə olaraq rədd edilir", - Lavrov qeyd edib.

Bu arada Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəhbəri Sergey Lavrova G20 sammitində təkcə siyasətçilər deyil, dünya mediası da məhəl qoymayıb . Xatırladırıq ki, G20 sammiti iştirakçılarının əksəriyyəti tərəfindən açıq şəkildə boykot edilən Lavrov tədbiri erkən tərk edib . Həmçinin, bəzi xarici işlər nazirlərinin işğalçı ölkənin xarici işlər naziri Sergey Lavrovla birgə şəkil çəkdirməkdən imtina etməsi səbəbindən builki G20 sammitinin bütün iştirakçılarının ənənəvi fotosessiyası ləğv edilib.

*Gülayə Mecid*

# Azərbaycan hərbçiləri Rusiyada təlimdə iştirak edir



***Rusiyada Çinin də iştirak etdiyi "Vostok-2022" (Şərq) strateji hərbi təlimi başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi açıqlama yayıb.

""Vostok-2022" təlimində Rusiya, Çin, Hindistan və Azərbaycan da daxil olmaqla 14 ölkədən əsgər və hərbi müşahidəçilər iştirak edir. Rusiyanın 7 poliqonunda, Oxot dənizi və dəniz sularında keçirilən təlimə 50 mindən çox əsgər və 140 təyyarə və 60 döyüş gəmisi də daxil olmaqla 5 mindən çox silah və hərbi texnika cəlb olunub", - deyə məlumatda qeyd olunub.

Əsas diqqət ölkənin şərq regionunda sülhün qorunması və hərbi təhlükəsizliyin təmin edilməsi məqsədlərinə yönələn təlim Rusiya Silahlı Qüvvələrinin Baş Qərargahının rəhbərliyi altında keçirilir.

Təlim sentyabrın 7-dək davam edəcək.

*Gülayə Mecid*

# Türkiyə vətəndaşları Ermənistanda hücuma məruz qaldı

***Ermənistanın Vedi qəsəbəsində ermənilərlə türkiyəli turistlər arasında toqquşma olub.***

"Unikal" erməni KİV-lərinə istinadən xəbər verir ki, gecə saatlarında baş verən hadisədə ər və arvad olan Türkiyə vətəndaşları ermənilərin hücumuna məruz qalıb.

Qeyd olunub ki, yerli sakinlər Türkiyə bayrağını gördükdən sonra mübahisə yaradıblar.

*Ağarza Elçinoğlu*

# "Sülhün bərqərar olması xalqımızın arzusudur" - Paşinyan

***"Əlbəttə ki, Brüsseldə keçirilən müzakirələr asan olmadı".***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin vasitəçiliyi ilə ötən gün Brüsseldə Azərbaycan prezidenti Əliyevlə görüşünə münasibət bildirib.

Onun sözlərinə görə, Ermənistan hökuməti sülh gündəliyini qəbul edib:

"Hamımız başa düşməliyik ki, bu, asan və sadə deyil. Biz ardıcıl işləməliyik və mən də hesab edirəm ki, bu, mümkündür. Xalqımızın arzusudur ki, nə vaxtsa bölgəmizdə davamlı və hərtərəfli sülh bərqərar olsun və biz bu problemin həllinə daha çox diqqət yetirməliyik", - deyə o, bildirib.

*Gülayə Mecid*

# Şimali Koreya Rusiya tərəfindən işğal olunmuş Ukrayna bölgələrinə işçi göndərəcək

***Ukraynada müharibənin yeddinci ayına qədəm qoyduğu bir vaxtda Şimali Koreya ölkənin şərqində Rusiya tərəfindən işğal olunmuş ərazilərin bərpasına kömək etmək üçün inşaat işçiləri göndərəcək.***



"Unikal" xəbər verir ki, bunu Rusiyanın Şimali Koreyadakı səfiri yerli KİV-lərdən birinə müsahibəsində deyib.

Səfir bu yaxınlarda Ukraynanın Donbas bölgəsində Rusiyanın dəstəklədiyi iki separatçı bölgənin nümayəndələri ilə görüşüb və ölkəsinin pandemiya ilə bağlı sərhəd nəzarətini yumşaltmasına istinad edərək, "əmək miqrasiyası sahəsində əməkdaşlıq" mövzusunda nikbin olduğunu bildirib.

Danışıqlar Şimali Koreyanın iyul ayında Rusiya və Suriyadan kənarda Donetsk və Luqanskın müstəqilliyini tanıyan və Ukrayna münaqişəsində Rusiya ilə daha da uzlaşan yeganə ölkə olmasından sonra baş tutub.

Şimali Koreyalı işçilərin Donbasda işə götürülməsi BMT Təhlükəsizlik Şurasının Şimala nüvə və raket proqramlarına görə tətbiq etdiyi sanksiyaları açıq şəkildə pozacaq və ABŞ -ın rəhbərlik etdiyi nüvə silahsızlanması üçün beynəlxalq təzyiqi daha da çətinləşdirəcək.

# Rusiya MAQATE missiyasının marşrutunu artilleriyadan atəşə tutub

***Ruslar MAQATE missiyasının Zaporojya AES-ə gələn marşrutunu artilleriyadan atəşə tutub.***



"Unikal" xəbər verir ki, bu barədə Zaporojya OVA-nın rəhbəri Aleksandr Starux məlumat verib.

"Ruslar MAQATE missiyasının Zaporojjyadan ZNPP-ə qədər əvvəlcədən razılaşdırılmış marşrutunu atəşə tutur. BMT-nin qabaqcıl qrupu təhlükəsizlik səbəbilə hərəkəti davam etdirə bilməz", - mesajda deyilir.

Starux qeyd edib ki, Ukrayna MAQATE-nin beynəlxalq missiyasının ZNPP-yə təhlükəsiz girişinin təşkili üçün səylərini davam etdirir:

"Biz Rusiya Federasiyasından təxribatları dayandırmağı və MAQATE-yə Ukraynanın nüvə obyektinə maneəsiz giriş icazəsi verməsini tələb edirik".

Bildirək ki, avqustun 31-də Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) missiyası işğal olunmuş Enerqodardakı Zaporojjya AES-ə baş çəkmək üçün Zaporojyaya gəlib.

Avropanın ən böyük atom elektrik stansiyası olan Zaporojjya AES martın 4-dən Rusiya hərbçiləri tərəfindən ələ keçirilib, o vaxtdan işğalçılar stansiyanın yerinə hərbi texnika və sursat yerləşdirərək ətraf əraziləri atəşə tutublar.

# "Qarabağ"la oyunda əlimizi-qolumuzu yanımıza salmayacağıq"

***"Əlimizi-qolumuzu yanımıza salmayacağıq". Bu sözləri "Kəpəz"i müvəqqəti baş məşqçi kimi Azərbaycan Premyer Liqasının 5-ci turunda "Qarabağ"la matça çıxaracaq Xaliq Mərdanov qarşıdakı görüşlə bağlı klubun mətbuat xidmətinə açıqlamasında deyib.***



O bildirib: "Rəqib həddindən artıq güclü komandadır. Digər klublardan fərqli futbol oynayırlar, Avropa futbolu nümayiş etdirən komandadır. Biz də çalışacağıq ki, əlimizdən gələni edək, rəqibə qarşı oyun nümayiş etdirə bilək. Qorxaq futbol yox, ehtiyatlı futbol oynayacağıq. Bəzi futbolçular təəssüf ki, bunları qarışdırırlar. İtkilərimiz də var. Həm zədəli, həm də cəzalı futbolçularımız bizə kömək edə bilməyəcəklər. Oyuna hazırlığımız yaxşı keçib. İlk günlər uşaqların əhval-ruhiyyəsi aşağı səviyyədə idi. Məğlubiyyətlərdən dolayı üzərlərində təzyiq vardı. Onlara motivasiya verməyə çalışdıq. İndi durumları daha yaxşıdır".

Xatırladaq ki, "Kəpəz"də baş məşqçi Yaşar Vahabzadə və məşqçilər korpusu istefaya göndərildiyindən komandanı hazırlığa da əvəzedicilərin baş məşqçisi Xaliq Mərdanov çıxarıb.

Qeyd edək ki, "Kəpəz" - "Qarabağ" görüşü bu gün saat 19:00-da başlayacaq.

# UEFA-dan Emre Belözoğluna sərt cəza

***"Başakşehir"in baş məşqçisi Emre Belözoğlu UEFA tərəfindən cəzalandırıb.***




Qol.az xəbər verir ki, bu barədə "Milliyet" nəşri məlumat yayıb. 42 yaşlı mütəxəssisin cəzalandırılmasına səbəb Konfrans Liqasının 2-ci təsnifat mərhələsində "Makkabi" (Netanya, İsrail) ilə ilk oyunda (1:1, cavab matçı - 1:0) Pro lisenziyası olmadığı halda, texniki zonada yer alması olub. Ona görə də Belözoğlu lisenziyası olanadək UEFA-nın Nəzarət, Etika və İntizam Komitəsi tərəfindən avrokubok matçlarında iştirakdan uzaqlaşdırıb. "Başakşehir" isə 10 min avro cərimələnib.

Qeyd edək ki, "Başakşehir"in Konfrans Liqasının A qrupundakı rəqibləri "Fiorentina" (İtaliya), "Harts" (Şotlandiya) və RFŞ (Latviya) olacaq.

# Ten Haq: "Ronaldo burada olduğu üçün xoşbəxtdir"

***"Mançester Yunayted"in baş məşqçisi Erik ten Haq futbolçusu Kriştiano Ronaldonun gələcəyi haqda danışıb.***



Mütəxəssis "Sky Sports"a açıqlamasında deyib: "Biz onunla bir neçə dəfə danışdıq. Ronaldo "Mançester Yunayted"də olduğuna görə xoşbəxtdir, yoxsa bizimlə olmazdı. Biz əvvəldən dedik ki, birgə gələcək planlaşdırırıq. Biz Kriştianodan razıyıq. O da burada olmaqdan məmnundur. Bu mövsüm birlikdə uğur qazanmaq istəyirik. Ronaldo bizim oyunumuza uyğunlaşacaq, çünki... İzah etməyə belə ehtiyac yoxdur. O, böyük bacarığı olan əfsanəvi oyunçudur. Ronaldo istənilən sistemə uyğun olacaq".

Qeyd edək ki, Kriştianonun "Mançester Yunayted"dən ayrılmaq istədiyi və özünə Çempionlar Liqasında mübarizə aparan klub axtardığı barədə məlumatlar yayılmışdı.

# "Olimpiakos"a keçidi baş tutmadı, La Liqaya gedir

***"Marsel"in futbolçusu Cordan Amavi La Liqa klubuna keçməyə yaxındır.***



Apasport.az saytının məlumatına görə, müdafiəçi "Xetafe" ilə danışıqlar aparır.

Fransa klubu oyunçunu satmağın əleyhinə deyil. Ötən mövsümün ikinci yarısını "Nitsa"da icarədə olan Amavi özünə yeni klub axtarır. Bu üzdən "Xefafe" variantına üstünlük verir.

Müdafiəçinin "Olimpiakos"a keçidi gözlənilirdi. Lakin Avropa Liqasında "Qarabağ"a rəqib olan Yunanıstan klubu ilə ilkin razılığa baxmayaraq, keçid reallaşmayıb.

Qeyd edək ki, Cordan Xorvatiyadan da təklif alıb.

# 2 boksçumuz beynəlxalq turnirin yarımfinalında



***Azərbaycanın 2 boksçusu Qazaxıstanın Aktau şəhərində keçirilən beynəlxalq turnirdə yarımfinala yüksəlib.***

Apasport.az saytının məlumatına görə, yığma üzvlərindən Ruslan Qədirov (54 kq) və Rauf Rəhimov (92 kq) 1/4 final döyüşünü qələbə ilə başa vurublar.

Qədirov Samat Jetibayevi (Qazaxıstan) 3:1 (30:26, 28:28, 29:27, 27:29, 30:26) hesabı ilə məğlub edib. O, finala gedən yolda qazaxıstanlı Timur Kabdeşovla üz-üzə gələcək.

Rəhimov isə Adilet Dosimbekovu (Qazaxıstan) mübarizədən kənarlaşdırıb. Boksçumuz döyüşü 5:0 (29:28, 29:27, 30:27, 29:28, 30:27) hesabı ilə aktivinə yazıb. Rauf növbəti qarşılaşmasında özbəkistanlı Nusratbek Tohirovla qüvvəsini sınayacaq.

Hər iki boksçu yarımfinala yüksəlməklə özü üçün ən azı bürünc medalı da təmin edib.

Yarışın 1/4 final mərhələsində daha 3 idmançımız - Rüfət Hüseynov (51 kq), Mirşərif Kazımzadə (75 kq) və Rasim Çobanlı (75 kq) rinqə çıxacaq. Onlar müvafiq olaraq, Foziljon Abdumuradov (Özbəkistan), İliyar Aşirov (Qazaxıstan) və Dias Moljiqitovla (Qazaxıstan) qarşılaşacaq.

Qeyd edək ki, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Tailand, Monqolustan, Tacikistan və Qırğızıstandan 130 boksçunun qatıldığı turnirdə yarımfinal döyüşləri sentyabrın 2-də olacaq.

# "Liverpul" onu gətirir

***"Liverpul" Artur Melonu heyətinə qatmağa yaxındır.***




"Yuventus"un yarımmüdafiəçisi icarə əsasında İngiltərə klubuna keçəcək. Tərəflər bununla bağlı anlaşma imzalamaq üzrədir. Tibbi müayinədən keçəcək futbolçu yeni komandasına qoşulacaq.

"Yuventus"un baş məşqçisi Massimiliano Alleqri Melonun xidmətində maraqlı deyil. "Liverpul" isə yarımmüdafiədəki kadr problemlərini həll etmək niyyətindədir.

Qeyd edək ki, Melo cari mövsümdə meydana çıxmayıb.